# GƏNCLİYİN YEDDİ SƏMASI

# (Zəruri dini biliklər)

بسم الله الرحمن الرحيم

**Kitabın adı:……………..…Gəncliyin yeddi səması**
**Tərcümə edən:…..……………...Məhəmməd Turan**
**Nəşr edən:………………………..…Barqe shaqayeq**
**Çap tarixi:…….……………..…………………2005**
**Tiraj:………………………...…………………...10000**

**نام کتاب..............................هفت آسمان جوانی**
**مؤلف..................................گروهی از محققین**
**ناشر..........................................برگ شقایق**
**نوبت چاپ..........................................اول**
**تاریخ چاپ..........................................1384**
**شمارگان..........................................10000**

**964-7661-12-1**

## AZƏRBAYCAN GƏNCLƏRİNƏ MÜRACİƏT

Azərbaycanın imanlı cavanları, mənim din qardaşlarım bir neçə kəlmə nəsihət istəmişlər. Təbərrük olaraq zikr edilməsini münasib bildiyim hədisdə məsum imam buyurmuşdur ki, Allahın nəzərindən heç bir vaxt kənarda olmadığını bil. İnsan özünü həmişə Allahın hüzurunda hiss etməli, bütün əməl və rəftarlarını Allahın razılığını qazanmaq istiqamətində tənzimləməlidir. İnsanın oturuşu-duruşu, yuxusu və oyaqlığı, hərəkəti və sükutu, işarələri və hətta bütün qəlbindən keçənlər Allahın hüzurundadır.

Əzizlərim, insanın ilahi ruhdan üfürülmüş nəfsi (canı) onun cismində Allahın əmanətidir. Dünyada həyat və varlıqdan üstün bir nemət yoxdur. Kamilliyin hər hansı bir mərtəbəsinə çatmaq istəsəniz, əvvəlcə özünüzü tanımalısınız. Nəfsi (özünü) tanımaq bilik qapılarının açılması üçün mühüm bir müqəddimədir. Çünki "özünü tanıyan Allahını tanıyar". Təəssüf ki, insan gənclik dövrünü bu həqiqətdən xəbərsiz keçirir. Elə ki, qocalıq qapını döyür, insanın bütün diqqəti zəif və əzabkeş bədənini qorumağa yönəlir.

İnsan gənclikdə nəfsinin tərbiyə və təzkiyəsinə (gözəlləşdirilməsinə) qadir olur. Bu mühüm işdən ötrü əziz cavanlar həmişə Qurani-kərimə yaxın olmalı, susuzluqlarını bu ilahi çeşmədə yatırmalıdırlar. "Əllah, Əllah, fil-Quran" bütün övliyaların tövsiyəsidir. Qurandan faydalanmaq və bu sahilsiz ilahi okeanın bir guşəsinə çatmaq üçün əzəmətli və əvəzsiz Əhli-beyt maarifi ilə tanış olmaq lazımdır. Onların yolu, həyatı və ölümü kamillik istəyində olan insan üçün çox münasib bir nümunədir. İslam dininin mühüm üstünlüklərindən biri kamil insanların tərbiyəsidir. Bu məsələyə heç bir məktəbdə İslamdakı qədər diqqət yetirilmir. Məsumların öz bərəkətli ömürlərini hansı yolda sərf etdiklərini öyrənəcək, həmin yolla ilə səfərə çıxmalıyıq. Gənclərin diqqət yetirməli olduqları ən zəruri məsələlərdən biri məsum imamların həyatının öyrənilməsi və bu mövzuda düşünməkdir.

Əziz gənclər, ayıq olun! Bu gün küfr və zor dünyası İslamla gənclər arasında təfriqə yaratmaqdadır. Onlar gənclərin doğru yoldan azdırılması üçün qüvvələrini səfərbər etmişlər. Dinin və dini şəxsiyyətin məhvi üçün fəaliyyət göstərən azdırıcı vasitələr

və mexanizmlər günbəgün artmaqdadır. Boş vaxtlarınızdan və mövcud imkanlarınızdan düzgün faydalanın, həqiqi dini tanımaq üçün ömrünü İslami araşdırmalara sərf etmiş mütəxəssislərdən istifadə edin.

Allah-təaladan diləyirəm ki, müsəlman dünyasını, xüsusilə gəncləri şeytanların şərindən hifz etsin, səadət və kamillik qapılarını onların üzünə daha artıq açsın. İnşəallah.

***Ayətullah-üzma Məhəmməd Fazil Lənkərani***

# MÜQƏDDİMƏ

**Görən kiməm? −məndən mənə xəbər ver,**
**"Özünə səfər et!" − varmı belə yer?**
**"Mən" haqqında soruşdunsa sən əgər,**
**İndi buyur söylə, nədir bu əsər?**
**Sən də, mən də o vücuddan bir şəfəq,**
**Yazılmış kitabdan düşəsi vərəq.**

Yaşadığımız dövran insan həyatının müxtəlif sferalarına yeni baxış və yeni düşüncə üçün yol açır. Elm və biliyin nəhayətsiz imkanları kömək etmişdir ki, dünyəvi biliklərlə silahlanan insan şəxsiyyətini hədəfə alıb, onu şəxsiyyətsizliyə sövq etsinlər. Hal-hazırda bir çox cəmiyyətlərin üzləşdiyi şəxsiyyət problemi həmin düşüncədən yaranmışdır. Bizim əqidəmizə görə İslam heç vaxt köhnəlmir və hər zaman təravətlidir. Bu müddəanın canlı sübutu olan Qurani-kərim həzrət Peyğəmbərin (s) və onun Əhli-beytinin buyurduğu kimi aktual və əbədidir. "Allah-taala Quranı xüsusi bir dövr və ya xüsusi bir təbəqə üçün nəzərdə tutmamışdır. Ona görə də bütün dövrlərdə, bütün qruplar arasında qiyamətədək təravətli və müasir qalacaqdır."[1] Bəli, Quran bütün suallara cavab vermək gücündədir. İnanırıq ki, insan öz yaşayış problemlərindən qəflətdə qalmır və suallara cavab vermək gücündədir. Çünki o məlumatsızlığı özü üçün eyb hesab edir. Şübhəsiz ki, rəngarəngliklər, bərbəzəklər içindəki boşluqda qalan insan ilahi mərifət ağacına əl uzadıb, əbədi meyvələr dərəcək. Əhli-beyt alimləri cəmiyyəti daim bu qurtuluş yoluna çağırır, sərhədçi tək keşikdə dururlar. "Bizim şiə alimləri İslam maarifinin keşikçiləridirlər."[2] Ayətullah-üzma Fazil Lənkəraninin

---

[1] "Biharul-ənвar", c2. s. 280.
[2] "Mizanül-hikmət", c. 3, h. 2087.

dəftərxanasının elmi bölməsi öz fəaliyyətini suallara cavab prinsipi üzərində qurmuşdur. Cəmiyyətin, xüsusi ilə gənc nəslin Əhli-beyt maarifi ilə tanışlığı istiqamətində ciddi addımlar atmışdır.

Əlinizdəki yazı biliklər məcmuəsidir. Bu biliklərə diqqət insanı səadət yoluna çıxarır.

***Dəftərxananın elmi bölməsi.***

## DÜŞÜNCƏLƏR GÜLÜSTANI

### *ŞİƏ DÜŞÜNCƏSİNİN ƏN AYDIN ƏSASI*

İslam Peyğəmbərinin (s) vəfatından sonra müxtəlif düşüncə və məzhəblərin yaranması haqqında xeyli araşdırma aparılmış, kitablar yazılmışdır. Hərəsi bir baxışa tərəfdar olan müəlliflərin hər biri öz məzhəbini peyğəmbər dövrünə aid etməyə çalışırlar. Amma tarix boyu İslamın iki böyük firqəsinin − şiə və sünnü alimlərinin təkid etdiyi məsələ budur ki, İslam Peyğəmbəri (s) dinin əsas məsələlərini tam işıqlandırdığından, ziddiyyətə səbəb olan rəy, qiyas, ictihad kimi vasitələrə ehtiyac yoxdur. Daxili və xarici düşmənlərin çoxluğunu nəzərə alaraq, həzrət Peyğəmbər (s) tövhid inqilabının əvvəlindəcə İslami ümmətin gələcəyini müəyyənləşdirirdi. Həzrətin (s) bilgisi 23 illik əzab-əziyyətin nəticəsini başlı-başına buraxmağa imkan vermirdi. Dəqiq bir yol və üsul müəyyənləşdirməyib, ümməti pərakəndə vəziyyətdə qoyma, hərənin öz bildiyi kimi meydana girib, İslamı bildiyi kimi təfsir etməsinə imkan verməк olmazdı.

Buna görə də biz əminik ki, İslam Peyğəmbəri (s) besətin (peyğəmbərliyə çatmasının) əvvəlindən pak insanlar tərbiyə etmək fikrində olmuş, özündən sonra İslam ümmətinə düzgün yol göstərilməsi və İslamın həqiqi təfsirini bu adamların öhdəsində qoymuşdur. Həzrət Peyğəmbər (s) Allah-taalanın əmri ilə Əhli-beyti tanıtdırmışdır ki, bu Əhli-beyt xalqı pərakəndəlikdən, fikri, məzhəbi və siyasi ixtilaflardan xilas etsin. Bu əqidənin canlı sübutu Qədir-Xum hadisəsidir. Qədir-Xumda həzrət Peyğəmbər (s) Allahın vəhyinə istinad edərək həzrət Əlini (ə) canişin kimi tanıtdırmış, bununla da öz risalətini təkmilləşdirmişdir.

Bu düşüncə İslamın ən böyük məzhəblərindən birinin kökünü davamlandırdı, bir çox sevgili çöhrələr və Peyğəmbərin (s) yaxınları uyğun əqidəyə sahib olaraq, o Həzrətin (s) həyatı dövründə onun mərkəzini formalaşdırdılar.[1] Əllamə Təbatəbainin bildirdiyinə görə, İslamın zühuru və 23 illik inkişafı belə bir cəmiyyətin varlığını zəruri edirdi. Həzrət Peyğəmbərin (s) Əliyə (ə) olan bağlılığını izhar etməsi, Əlinin (ə) İslamın tərəqqisi naminə müharibələrdəki xidmətləri həqiqətsevər peyğəmbər

---

[1] “Məzhəblərin yaranma tarixi”, s. 72

köməkçilərində Əliyə (ə) qarşı məhəbbət yaradır, onun ardınca getməyə ruhlandırırdı. Eyni zamanda, başqa bir qrup həsəd alovunda qovrulurdu. Bu düşüncə şəriət sahibinin əli ilə müsəlmanların varlığında yer aldı, onun vəfatından sonra bəhrə verdi. Bu yolun ardıcılları Peyğəmbər (s) əsrində şəriət sahibi tərəfindən şiə adı iftixarına çatdılar.

Əllamə Təbatəbainin fikrincə, Peyğəmbərin (s) yaxınları arasında belə bir cəmiyyətin yaranması İslamın keçdiyi 23 illik yolun nəticəsi idi. Peyğəmbərin (s) Əliyə (ə) sevgisi və Əlinin (ə) müstəsna xidmətləri belə bir qrupun yaranmasını zərurətə çevirirdi.

Həqiqi İslamı təcəssüm etdirən bu qrupun əsas inamları ilə tanış olaq:

1. Tövhid.

Şiə Allahın birliyinə etiqaddan əlavə, buna inanır ki, Allah cismlikdən və zaman, məkan, dəyişmə kimi cismə aid olan sifətlərdən uzaqdır. Bu inama görə şiələr "münəzzəhə" adlandırılmışlar.

2. Ədl.

Şiələr möhkəm əqli dəlillərə əsasən inanırlar ki, Allah-taala ehtiyacsız, həkim, alim olduğu üçün ədalətlidir və heç vaxt zülm etməz.[1] Yaranış dünyasına, maddi və mənəvi aləmə ədalət hakimdir. Allah hər şeyi məqsədlə yaratmış, yaratdıqlarının ehtiyaclarını təmin etmiş və hər şeyi layiq olduğu yerdə qərar vermişdir. Allahın bu istiqamətdəki ədaləti "təkvini" ədalətdir.

"Təşrii" ədalət adlanan sifət isə Allahın məqsədlə yaratdığı insana fitri, əqli, şəri yollarla səadət yolunu göstərməsindən ibarətdir. Allah-taala peyğəmbərlər göndərməklə kamillik yolunu bəşəriyyət üçün işıqlandırmışdır.

3. Cəbr və ixtiyar.

Şiə etiqadına görə, Allah insanı əməl və istək baxımından azad yaratmışdır. Heç kəs bir işə məcburi şəkildə, öz istəyi olmadan başlamır. Yaxşı və ya pis iş görmək insanın istəyindən asılıdır. Ona görə də insan gördüyü işə cavabdeh olmalı, yaxşı işin mükafatını, pis işin cəzasını almalıdır.[2]

---

[1] "Yunis", 44

[2] "İnsan", 3.

4. Yaranış məqsədi.

Şiəliyə əsasən, insanın hərəkətləri zatən gözəl və ya çirkindir. İnsan ağlı gözəllik və çirkinliyi dərk edə bilir. Allah-taala ehtiyacsız, həkim və alim olduğundan heç vaxt pis iş görməz. Ona görə də dünya və insanın xüsusi məqsədlə yaradıldığına inanırıq. Quran ayələri Allahın işlərinin əbəs olmadığını bildirir. Bəzi ayələrdə isə yaranış məqsədi bəyan olunur.[1]

5. Nübuvvət.

Kamilliyə çatmaq üçün insanın ağlı kifayət etmədiyindən, Allah yaranışın məqsədə çatmaq yolunu göstərir. Üstün, pak, sadiq insanlar peyğəmbər olaraq seçilir ki, insana məqsəd və məqsədə doğru yol göstərilsin. Peyğəmbərlərin Allah tərəfindən gəlişinin isbatı üçün onlar müxtəlif vasitələrlə, eləcə də, möcüzə, elm və qeybi biliklərlə təchiz olunur. Peyğəmbərlərin sonuncusu həzrət Məhəmməd (s) Mustəfadır.[2]

6. Səmavi kitab.

Allah-taala bəşərin hidayəti, yəni doğru yola yönəldilməsi üçün səmavi kitablar göndərmişdir. Bu kitablardan faydalanmayan insan səhvə yol verir, təqva (pəhriz), əxlaq və tərbiyədən uzaq olur. Səmavi kitabların sonuncusu İslam Peyğəmbərinin (s) ən mühüm möcüzəsi olan Qurandır. İmam Sadiqin (ə) buyurduğu kimi, Quran əbədi aktual kitabdır.

Şiə əqidəsinə görə, hazırda əlimizdə olan Quran eynən Peyğəmbərə (s) nazil olmuş Qurandır. Ona bir şey artırılmamış, ondan bir şey əskilməmişdir.[3] Bu kitab Peyğəmbərin (s) nəzarəti ilə toplanmışdır. Müsəlmanlar onun hifzi üçün ciddi şəkildə çalışırlar. Bu müqəddəs fəaliyyət indi də davam etməkdədir.

7. Quranın təfsiri.

Şiələr bu əqidədədirlər ki, Quranı yalnız Peyğəmbər (s) sünnəsindən yaxşı xəbərdar olan insanlar təfsir edə bilər. Onlar Peyğəmbər (s) qoynunda tərbiyə olunmuş, həzrətin elminin varisləri olmalıdırlar. Allah-taala yuxarıda sadalanan keyfiyyətlərə malik məsum insanları həm də müsəlman cəmiyyətinə rəhbərlik üçün seçmişdir. Bu məqsəd on iki imamın

---

[1] "Möminun", 115; "Qiyamət", 26 ; "Ənbiya", 16 ; "Duxan", 38; "Hud", 119.

[2] "Nəhl", 36.

[3] "Hicr", 9.

təyini ilə gerçəkləşmişdir. Qurani-kərimin təfsirinə yol açan əksər rəvayətlər məsum imamlardan nəql olunmuşdur.

8. İmamət.

Şiəliyə görə, ilahi hikmət peyğəmbərlərin gəlişini zəruri etdiyi kimi, peyğəmbərlərdən sonra imamların da gəlişi zəruridir. Məsum imamlar Peyğəmbər yolunu davam etdirir, onun şəriətini təhrifdən qoruyurlar. İmamlar və peyğəmbərdən sonrakı canişinlər bəyan, təbliğ, təfsir, nəfslərin tərbiyəsi kimi peyğəmbər vəzifələrini öhdələrinə götürürlər. Onlar Peyğəmbərin (s) özü kimi günahdan uzaq olmalı, xalqın ehtiyaclarına cavab verməlidirlər. İsmət və məsumluq kimi sifətləri tanımaq gücündə olmayan insan əqli və nəqli dəlillərə əsasən, Allahın tanıtdırdığı şəxslərə tabe olmalıdır.[1] Amma təəssüf ki, insanlar bu vəzifələrinə lazımınca əməl etməmişlər. Ona görə də məsum imamlar rəhbərlik vəzifələrindən, cəmiyyətin idarəçiliyindən kənarda qalmışlar. Bunu da deməliyik ki, imamların siyasi meydandan uzaqlaşdırılması onların məqamını əskiltmir. Onları bu məqama insanlar yox, Allah seçmişdir.

9. Məhdəviyyət.

Şiə etiqadına görə on ikinci imam Həzrət Mehdi (ə) qəməri tarixi ilə 255-ci ildə Bağdadın şimalında yerləşən Samirra şəhərində imam Həsən Əsgərinin ailəsində Nərgis adlı xanımdan doğulmuşdur. Allahın məsləhəti ilə bir dəstə təqvalı və sirrsaxlayan mömin o həzrəti görmüş və bu barədə etibarlı adamlara xəbər vermişlər. Bu hadisəni otuza yaxın sünnü alim və şairləri də nəql etmişlər. Bir çoxları həzrətin ömrünün uzunluğuna şübhə ilə yanaşırlar. Hansı ki, ömrün uzunluğu əqlən mümkündür və Allahın qüdrəti əhatəsindədir. Tarixdə belə bir hadisənin olduğunu Quran da nəql edir.[2]

10. Qeybət (qeybdə olma).

O zaman ictimai-siyasi durum həzrət Mehdinin (ə) rəsmi aşkar fəaliyyətinə imkan vermirdi. Digər bir tərəfdən, ayə və rəvayətlərə əsasən, hansısa bir gün yer üzündə ilahi ədalət hakim olmalı, zülmün kökü kəsilməlidir. Bu məqsəd yalnız məsum imamın hüzuru ilə gerçəkləşə bilər. Buna görə də həzrət Mehdi

---

[1] "Səhihe-Müslim", c. 4, h. 18873.

[2] "Ənkəbut", 14

(ə) insan nəzərindən gizli qalaraq, zühur üçün münasib şərait intizarındadır. Həzrət (ə) nə vaxtsa zühur edib bütün yer üzünə hakim olan İslam hökuməti quracaq.

Prinsipcə bütün dinlərdə belə bir inanc olsa da, şiəlikdə bu məsələ dinə etiqadın tərkib hissəsidir. Rəvayətə görə, bəşəriyyətin həzrətlə görüşə hazırlığı onun zühuruna şərait yaradır. Ona görə də imamın (ə) zühuru intizarında olmaqla yanaşı, əməli şəkildə hazırlaşmaq, təqva silahı ilə silahlanaraq cəmiyyətdə ilahi fəza yaratmaq imamın (ə) hökumətinin təşkili üçün zəruridir.

11. Rəcət.

Şiə etiqadına görə, zülm-sitəm böyük günahların cəzası qiyamətdən qabaq veriləsidir. Quranda bəzi qövmlərin dünyada cəzalandırıldığı bildirilir.[1] Cəzalandırılmış qövmlərin "geri dönməyəcəyi" bildirilir. Aydındır ki, bu dönüş qiyamətə aid deyil. Quran ayələrində bütün insanların qiyamət səhnəsinə dönəcəyi xəbər verilir. Yuxarıdakı ayədəki "geri dönməyəcək" ifadəsi Əhli-beyt təfsirinə əsasən qiyamətə yox, rəcətə aiddir. Əksər qövmlərdə, eləcə də, İslam ümmətində bəzi zalımların cəza üçün dünyaya qaytarılacaqlarına (rəcət) inam var.[2]

İki Quran ayəsinə nəzər salaq: "Qiyamət günü hamı gətiriləcək."[3] "Hər ümmətdən bir dəstə gətiriləcək."[4] Bu iki ayədə ayrı-ayrı zamanlardan danışıldığı aydın görünür. Hamının qayıdışı qiyamətə, xüsusi bir dəstənin qayıdışı isə rəcət dövrünə aiddir. İmam Sadiq (ə) buyurur: "Qiyamətdən qabaq ölülərin bir dəstəsinin mühüm hesablar üçün dirilməyi Allah üçün asan işdir."[5]

Tam yəqinliklə demək olar ki, rəcətdə həzrət Əli (ə) imam Hüseyn (ə) kimi ilahi şəxsiyyətlər, eləcə də rəhmsiz zalımlar həyata qaytarılacaq ki, həqiqi möminlər qarşısında hesab çəkilsin. Sünnət əhli arasında da rəcətə inananlar var. Əgər bu inam cəmiyyətə məntiqi şəkildə çatdırılarsa, bir sıra digər amillər kimi, güclü islahedici rol oynayar.

12. Bəda.

---

[1] "Ənbiya", 95.
[2] "Biharül-ənвar", c. 53, s. 52.
[3] "Kəhf", 47
[4] Nəhl", 84.
[5] Həmin mənbə.

Şiələr bir sıra ayə və rəvayətlərə əsasən inanırlar ki, insan öz həyat yolunu dəyişməklə taleyini dəyişə bilər. “Hər insan anadan xoşbəxt və ya bədbəxt, behiştlik və ya cəhənnəmlik doğulur” sözü əqli və şəri nöqteyi-nəzərdən yanlışdır. Belə bir baxış “cəbri” əqidəsinə uyğundur və Allahın ədaləti ilə bir araya sığmır. “Bəda” taleyi dəyişməyin mümkünlüyünə inamdır. Bəda etiqadının fərd və cəmiyyət üçün tərbiyəvi əhəmiyyəti və bir çox başqa faydaları vardır. Bu əqidə günahkar insanları tövbəyə həvəsləndirir, onları Allaha doğru yönəldir.

Sünnə əhlində də belə bir inam mövcuddur. Bəzi əməllərin ömrü uzatması, bəzi əməllərin ömrü qısaltması mövzusundakı hədislər həmin inamın varlığını sübuta yetirir. İnsanın öz taleyini dəyişə bilməsi bəda etiqadının əsas məfhumudur.

13. Şəfaət.

Şiələr inanır ki, peyğəmbərlər, xüsusi ilə də, İslam Peyğəmbəri (s) və məsum imamlar şəfaət məqamına malikdirlər. Yəni Allaha yaxın olan bu insanlar, Onun izni ilə, tövhid əqidəsində olan günahkarları qiyamət günü bağışlatdıra bilərlər. Şiələr buna da inanırlar ki, Allah-taala şəfaət məqamını peyğəmbər və imamlara onların bəndəliyi, ixlası, cihadı, fədakarlığı müqabilində bağışlamışdır. Deməк, insan elə bu dünyada şəfaət istəyə bilər ki, qiyamətdə bağışlanılsın.

Bu inama qarşı heç bir şəri, əqli və ürfi irad yoxdur. Quran və Əhli-beytin mötəbər kəlamları bu inamın yetərli dəlilləridir. Digər bir tərəfdən, müsəlmanları şəfaət istəyinə çağıran ayələr hansısa bir dövrü yox, qiyamətədək bütün zamanları nəzərdə tutur.

Bədaya inam kimi, şəfaətə də inam Allahın mərhəmətinə ümidi artırır, günahların tövbəsinə həvəsləndirir. Amma şəfaətin şərtlərinə diqqətli olmaq, onu dünyanın yanlış dəstəbazlıqları ilə səhv salmamaq lazımdır.[1]

14. İlahi şəxsiyyətlərin qəbri üzərində qübbə, məqbərə tikilişi

Şiə əqidəsinə görə, Allaha, İslama və müsəlmanlara fədakarcasına xidmət etmiş ilahi şəxsiyyətlərə ehtiram, onların qəbri üzərində məqbərə tikmək, onları ziyarət etmək, doğum və vəfat günləri mərasim keçirmək Allahın bəyəndiyi işlərdir, əqlən və şərən məqbuldur. “Həcc” surəsinin 32-ci ayəsində buyurulur:

---

[1] “Nisa”, 64; “Yusuf”, 97.

“Allahın mərasiminə ehtiram, şübhəsiz ki, qəlblərin təqvasındandır.” Əlavə olaraq, bu iş xeyirli bir əməl, ali mədəniyyət nişanəsi, İslam ümmətinin öz həqiqi rəhbərlərinə ehtiramıdır. Belə işləri şirk hesab edənlər əslində şirk və tövhiddən xəbərsizdirlər. Şirk odur ki, Allahdan başqası ilahiləşdirilsin. Məsələn, bir bəndəyə imanına görə təzim yox, onu Allah bilərək edilən təzim şirkdir. Biz şəfaət verənləri istəklərimizin yerinə yetirilməsində müstəqil bilmirik.

Şəri ölçüləri, hədləri gözləməklə belə fitri işlərə icazə verilməsi xalqı pak insanlarla mənəvi təmasa, ruhi əlaqəyə sövq edir. İnsanlar şəfaətin tərbiyəvi, ictimai-siyasi faydalarından bəhrələnirlər.

**Nadan nə bilsin ki, şükr etmək nədir,**
**Haqqı tanıyanlar Ona şükr edir.**

15. Ölümdən sonra həyat.

Şiəliyə görə, insan ölümdən və əbədi ruhlar aləminə keçdikdən sonra bərzəx dünyasına qədəm qoyur. Bu dövrdə onun yeganə yoldaşı dünyadakı əməlləri olur. Bu mərhələdə iki ilahi mələk gəlib, Allahın əmri ilə insandan əməl sorğusu aparır və ondan təsdiq alır. Əməllərdən asılı olaraq, qəbir ya genişlənib, behişt bağına çevrilir, ya da daralıb, odla dolu cəhənnəm quyusuna dönür. Bu vəziyyət qiyamət gününədək davam edir.

Bu həqiqətlər qarşısında ağıl acizdir. Yalnız Allahın kitabı və Peyğəmbər (s) buyruqlarında bu barədə məlumat verilir. Dünya həyatına bağlanıb, qeyb aləmindən xəbərsiz olan insanların belə məsələlərə inanması çox çətindir. Quran buyurur: “Onlar dünya həyatının zahirini bilir, axirətdən isə xəbərsizdirlər.”[1]

Sözsüz ki, insanın xüsusi ilə gənclik vaxtında ölümdən sonrakı həyata etiqadı onu günahlardan uzaqlaşdıran çox güclü bir amildir.

16. Məad.

Şiələr inanırlar ki, bütün insanlar istisnasız olaraq qiyamət günü Allah tərəfindən mühakimə olunacaq, kimi behiştə, kimisi cəhənnəmə göndəriləcək. Əqidəmizə görə, məadın, yəni ölümdən

---

[1] “Rum”, 7.

sonrakı həyatın bir neçə xüsusiyyəti vardır:

–Məad, qiyamətə dönüş həm cismə, həm də ruha aiddir;

–Qiyamət mühakiməsi kamil ədalətə əsaslanır. Hakim də, şahid də, cəza verən də Allah-təala özüdür;

–Qiyamətdə şahidə ehtiyac olmasa da, insanın ağlı, əməl naməsi, mələklər, peyğəmbərlər, möminlər, bədən üzvləri ona şahidlik edər;

–Qiyamət hesabında əməl ölsüsü Peyğəmbər (s) və imamlardır.

17. Müsəlmanlara pisliyin aid edilməsi.

Şiəliyə görə, müsəlmanı günahkar və ya kafir bilmək, onların canına, malına, namusuna təcavüz etmək olmaz.

İman Allahın birliyini, həzrət Məhəmmədin (s) peyğəmbərliyini təsdiq etməkdir. İmanlı insana ehtiram vacibdir.

Küfr Allahın varlığının və ya birliyinin, həzrət Məhəmmədin (s) peyğəmbərliyinin, eləcə də namaz və oruc kimi zəruri dini hökmün inkarıdır. Əgər bir şəxs bilərəkdən bu əsasları inkar etsə, kafir sayılar. Başqa heç bir halda insanı kafir saymaq olmaz. Hər bir müsəlman fiqhi terminlərin ( məsələn, iman və küfr ) dəqiq mənasını öyrəndikdən sonra həmin terminlərdən istifadə edə bilər.

## ÖYRƏNİLƏSİ DİNİ HÖKMLƏR

### *YETKİNLİK (BÜLUĞ) YAŞININ ƏLAMƏTLƏRİ*

Dini vəzifələrin insana vacib olduğu hədd "büluğ" həddi adlanır.

Oğlanlarda büluğ həddinin əlamətləri:

1. Qarından aşağıda cod tüklərin çıxması;

2. Cinsiyyət orqanından məninin (spermanın) xaric olması (istər yuxuda, istər oyaq ikən) ;

3. Qəməri təqvimlə 15 yaşın tamam olması (şəmsi və ya miladi təqvimlə 15 yaşdan 163 gün 6 saat tez)

Qızlarda büluğ həddinin əlamətləri:

1. Qarnından aşağıda cod tüklərin çıxması;

2. Cinsiyyət orqanından məninin xaric olması;

3. Qəməri təqvimlə 9 yaşın tamam olması (şəmsi təqvimlə 9 yaşdan 97 gün, 22 saat, 48 dəqiqə tez)

İnsanın inkişafı onun büluğundan fərqlənir. İnkişaf etməmiş gənc baliğ (büluğ həddində), inkişaf etmiş gənc qeyri-baliğ ola bilər.

Əgər 15 yaşı tamam olmamış bir şəxsdən məni xaric olarsa, o, həddi-büluğ hesab edilir. O, namaz qılıb, oruc tutmalı, ötürdüyü günlərin qəzasını yerinə yetirməlidir. Əgər bu şəxs şəri vəzifəsini bilmədiyindən oruc tutmamışsa, kəffarə verməməlidir.[1]

Dəstəmaz

Müqəddəs İslam ayininin tapşırıqlarından biri təharət − ruhun və cismin bulaşıqlıqdan paklanmasıdır. Cismin paklığı bədənin və paltarların təmizliyindən ibarətdir. Ruhun paklığı isə yalnız dəstəmaz vasitəsi ilə əldə olunur. Dəstəmazsız halda Quran ayələrinə və məsumların adlarına toxunmaq olmaz. İmam Riza (ə) dəstəmaz və onun xüsusiyyətləri haqqında buyurur:

a) Dəstəmaz Allah qarşısında ədəbdir, bəndə namaz vaxtı Allahın qarşısında durarkən pak olur.

b) Dəstəmaz çirkinlik və alçaqlığı yuyub, insanı paklayır.

v) Dəstəmaz süstlüyü, yuxunu aradan qaldırır, şadlıq gətirir.

q) Qəlb və ruh Allahla görüşə tənzimlənir.[2]

---

[1] "Cameül-məsail", c. 1s. 34.

[2] "Bəsailüş-şiə", c. 1, s. 257

İnsan namazdan qabaq dəstəmaz alıb, özünü bu böyük ibadətə hazırlamalıdır. Bəzən isə qüsl vermək də vacib olur. Qüsl bütün bədənin yuyulmasından ibarətdir. Dəstəmaz və qüsl üçün imkan olmadıqda onların əvəzinə “təyəmmüm” edilir.[1]

Namazın vaxtı çatmamış namaz yox, Allaha yaxınlıq niyyəti ilə dəstəmaz almaq olar. Bu dəstəmazla namaz da qılmaq mümkündür.[2]

Dəstəmaz alarkən suyu israf etmək dəstəmazı batil etmir, amma israfdan və vasvasılıqdan çəkinmək lazımdır. Məsh vaxtı əldəki yaşlığın kifayət etməsi üçün sol əli həddən artıq yumaq dəstəmazı batil edir.

## *NAMAZIN HÖKMLƏRİ*

Müqəddəs İslam ayinində namaz “dinin sütunu” kimi təqdim olunur və onun hifzi təkidlə tapşırılır. Yaxşı olar ki, namaz ilkin vaxtda qılınsın. Namazı yüngül saymaq namaz qılmamaq kimidir. Ona görə də namaz vaxtı tələsmək olmaz.

Namaz qılmamaq böyük günahlardandır və insanı ağır əzaba düçar edir. Bəzi rəvayətlərə əsasən, namaz qılmamaq küfrə bərabərdir.

Namaz ən üstün dini əməldir. Digər əməllərin qəbulu onun qəbulundan asılıdır. Allah-taala namazı saleh insanların hökumət nişanəsi sayaraq buyurur: “Onlara yer üzündə iqtidar versək, namaz qılarlar.”[3] Din böyükləri bizə daim namazı fəzilətli vaxtında qılmağı tapşırmışlar. Namaz, onun fəzilətləri və nəticələri olduqca geniş bir söhbətin mövzusudur.

Qılmalı olduğumuz namazlar iki qismdir: vacib namazlar və müstəhəb (məsləhət görülən) namazlar. Vacib namazlar da iki qismə bölünür: xüsusi vaxtı olan namazlar (məsələn, 17 rəkət gündəlik namaz) və müəyyən səbəblərə görə vacib olan namazlar (məsələn, zəlzələ, günəş tutulması ilə əlaqədar namazlar)

## *VACİB NAMAZLAR*

1. Gündəlik namazlar (yövmiyyə);
2. Ayat namazı;

---

[1] “Risaleye əhkam”, s. 32.
[2] “Cameül-məsail”, c. 2. s. 38.
[3] “Həcc”, 41.

3. Meyit namazı;

4. Allah evinin (Kəbə) təvafı;

5. Böyük oğul üçün, dünyasını dəyişmiş ata-ananın qəza namazı;

6. Nəzir, əhd, and, icarə vasitəsi ilə vacib olmuş namazlar.

– əgər insan günorta namazını qılmamış səhvən ikindi namazına başlasa və namazın ortasında səhv etdiyini başa düşsə, müştərək vaxtda (hər iki namazı mümkün edən vaxtda) niyyətini günorta namazına döndərə bilər. Yəni niyyət edər ki, namazın qılınmış hissəsi günortaya aid olsun. Bu namazı bitirib, ikindi namazına başlamaq olar. Amma günorta namazına məxsus vaxtda belə bir səhv olarsa, vacib ehtiyata görə, niyyət günorta namazına döndərilməklə namaz tamamlanır və yenidən qılınır.[1]

– əgər üzrlü səbəbdən gecə yarıyadək şam və xüftən namazları qılınmazsa, vacib ehtiyata görə, sübh azanından əvvələdək əda və qəza niyyət edilmədən yerinə yetirilməlidir.[2]

– əgər namazın axır vaxtına bir rəkətlik vaxt qalırsa, namaz əda niyyəti ilə qılınmalıdır. Amma bilərəkdən namazı həmin vaxtadək təxirə salmaq olmaz. (həmin mənbə, m. 718)

– əgər namaza başlamamışdan qabaq insanın niyyətində olsa ki, məsələn, telefon zəng çalsa və ya qapı döyülsə, eləcə də, namaz qılınan yerdə izdiham namaza mane olsa, namazı kəsib tamamlayacaq, bu maneələrin qarşıya çıxmayacağı ümidi ilə namaza başlamaq olar. Maneə ilə qarşılaşmadan bitirilən namaz düzgündür. Müxtəlif hallar arasında fərq yoxdur.[3]

–Yatmış halda insan vəzifəli deyil. Amma qonağı və ailə üzvlərini sübh namazına oyatmamaq namaza etinasızlıq sayılırsa, həmin şəxslər oyadılmalıdır. Onları, razı olduqları halda yuxudan oyatmağın eybi yoxdur.[4]

---

[1] “Töвzihül-məsail”, m. 701.

[2] Həmin mənbə, m. 710.

[3] “Cameül-məsail”, c. 2, s. 253.

[4] Həmin mənbə, s 257.

## *NAMAZDA BƏDƏNİN ÖRTÜLMƏSİ*

–Kişilər namaz halında əgər bir şəxs görmürsə də cinsiyyət üzvünü örtməlidir. Yaxşı olar ki, namaz qılan kişi göbəkdən dizədək örtünsün.[1]

–Qadınlar namaz halında süni saçları, qolbağ və boyunbağı kimi gizli zinətləri, göz sürməsi kimi üz bəzəklərini örtməyə bilər. Amma naməhrəmdən örtünmək vacibdir.[2]

## *NAMAZ QILANIN LİBASI*

–İnsan, bədəninin və libasının murdar olduğunu namazın gedişində və ya namazdan sonra xatırlayarsa, namazını yenidən qılmalı, vaxtı keçmişsə, qəzasını yerinə yetirməlidir.[3]

–Namaz halında qadının başının tükü görünərsə, ona bildirmək vacib deyil. O, nə qədər ki, tükünün göründüyündən xəbərsizdir, namazı düzgündür.[4]

–Qadının bədəni göstərən paltarla namaz qılması düzgün deyil. Amma çadra qolları örtərsə, qadın qısaqol köynək geyinə bilər.[5]

–Gəmi və təyyarə kimi, insanın sakit dayana bildiyi nəqliyyat vasitələrində namazın qiblə kimi şərtlərinə əməl etməklə namaz qılmağın eybi yoxdur. Amma ürfən sakit dayanmaq mümküsüz sayılan qayıqda və ya avtomobildə namaz qılmaq düzgün deyil. Yalnız zəruri hallarda və namazın vaxtı dar olduqda buna icazə verilir.[6]

–Namazda qadın kişidən arxada dayanmalıdır. Yaxşı olar ki, qadının səcdə yeri kişinin durduğu yerdən azca geri olsun. Qadın kişi ilə bərabər və ya ondan qabaqda durarsa, namazı batildir. Bu hökm ərlə arvada da aiddir. İstər vacib, istər müstəhəb namazda bu hökm qüvvədə qalır.[7]

–Murdar paltardan başqa paltarı olmayan, vaxtı dar olan və ya pak paltar tapacağına ehtimal etməyən kəs namazını çılpaqlara aid

---

[1] "Töвzihil-məsail", m.761.
[2] Həmin mənbə, m. 765.
[3] Həmin mənbə, m. 778.
[4] "Cameül-məsail", c. 2, s. 267.
[5] Həmin mənbə, c. 2, s. 264.
[6] Həmin mənbə, m. 841.
[7] Həmin mənbə, m. 780.

göstərişlər əsasında qılmalıdır. Soyuq və ya digər səbəbdən libasını soyuna bilməyən şəxs elə həmin paltarda namaz qıla bilər və namazı düzgündür.[1]

–Təsbihatı öyrənə bilməyən və ya düzgün deyə bilməyən kəs namazın üçüncü və dördüncü rəkətlərində həmd oxumalıdır.

–Əgər rüku yaddan çıxmışsa və səcdəyə çatmamış yada düşmüşsə, insan tam ayağa qalxıb, sonra rükuya getməlidir. Tam ayağa durmamış rüku edilərsə, namaz batil olar.

–Alını torpağa qoyduqdan sonra, rüku edilmədiyi yada düşərsə, vacib ehtiyata görə tam ayağa qalxmaq, sonra rükuya getmək lazımdır. Bu namazı bitirdikdən sonra digər bir namaz qılınmalıdır. Amma ikinci səcdədə rüku edilmədiyi yada düşərsə namaz batildir və yenidən qılınmalıdır.[2]

–Əgər ixtiyarsız olaraq alın səcdədən qalxsa, imkan qədərində ikinci dəfə alını torpağa qoymaqdan çəkinmək lazımdır. Bu, bir səcdə hesablanır (zikr deyilsə də, deyilməsə də). Əgər insan ixtiyarsız olaraq alnını təkrarən torpağa qoysa, üst-üstə bir hesablanar. Əgər zikr deyilməmişdirsə bu dəfə deyilməlidir.[3]

–Əgər birinci səcdədə alına yapışmış möhür alından götürülmədən ikinci səcdə edilərsə, eybi yoxdur və iki səcdə hesab olunur. Amma yaxşı olar ki, möhür alından götürülsün.[4]

–Öskürmək, asqırmaq, ah çəkməyin eybi yoxdur. Amma bilərəkdən iki hərfdən ibarət "ah", "of" kimi sözlər demək namazı batil edir.

---

[1] Həmin mənbə, m, 788.
[2] Həmin mənbə, m.1015.
[3] Həmin mənbə, 1039.
[4] Həmin mənbə, 1049.

## ORUCUN HÖKMLƏRİ

–İnsan ramazan ayında yemək yediyi vaxt sübh olduğunu bilsə, tikəni ağzından çıxarmalıdır. Əgər bilərəkdən həmin tikəni udsa, orucu batildir və kəffarə verməsi də vacibdir.[1]

–Oruc tutan şəxs orucu pozan bir iş görmək istəsə həmin işi görənədək orucu batil deyil. Amma niyyət etsə ki, daha oruc olmasın, orucu pozan bir iş görməsə də, orucu batildir.[2]

–Quranı səhv oxumaq öz-özlüyündə haram deyil və orucu batil etməz. Amma möminlər Quranı düz oxumağa çalışmalıdırlar. Bir şəxs Qurandan oxuduğu hissədə səhv oxuduğu üçün mənanın dəyişdiyini, həqiqətə zidd olduğunu bilsə və bu zidd, yalan mənanı Allaha aid etmək məqsədində olsa oxuduqları haramdır və orucunu da batil edir. Belə adamın qəzadan əlavə, ehtiyata görə kəffarə verməsi də vacibdir. Bir şəxs məna dəyişməsə də, Quranı səhv oxuduğunu bilsə və Allahın Quranı bu şəkildə nazil etdiyi qərarında olsa, oxuması haramdır və orucu batildir.[3]

–Əgər həkimlər bir xəstənin oruc tutub-tutmaması barədə müxtəlif fikirdə olsalar, xəstə özü məsələni aydınlaşdırmaq üçün bir neçə gün oruc tutmalı, zərər olmasa orucu davam etdirməlidir. Amma zərər görsə, oruc tutmaq vacib deyil. Növbəti ramazan ayından qabaq sağalarsa, oruclarının qəzasını tutmalı, sağalmazsa, hər gün üçün fəqirə 10 sir (1 sir= 75 q) ya buğda, ya arpa, ya da çörək verməlidir.

–Oruc tutmağa icazə verməyən həkim mütəxəssis olsa və onun sözlərindən əminlik yaransa bu sözlər dəlil hesab olunur.[4]

–Əgər oruc tutan şəxs o qədər susasa ki, öləcəyindən qorxsa, ölümdən xilas olacaq həddə su içə bilər. Amma orucu batildir. Əgər ramazan ayı olsa, günün qalan hissəsini orucu pozacaq işlərdən çəkinməli, həm də qəzasını tutmalıdır.[5]

–Əgər ramazan ayında sübh azanından sonra oyanıb möhtəlim[6] olduğunu görsə, azandan qabaq möhtəlim olduğunu bildiyi halda

---

[1] m. 1039.
[2] "Cameul-məsail", c. 2. s, 434.
[3] Həmin mənbə, s. 570.
[4] Həmin mənbə, c. 1, s. 570.
[5] "Töвzihil-məsail", m. 1549.
[6] Yuxuda ondan məni (sperma) gəldiyi mə'lum olsa.

orucu düzgündür.[1]

–Əgər qadın sübh azanından qabaq heyz və nifasdan paklanarsa və qüsl üçün vaxt qalmazsa, ramazan orucu tutmaq istəsə, təyəmmümlə oruc tuta bilər. Sübhə qədər oyaq qalmaq lazım deyil. Təyəmmüm üçün də vaxt olmasa, orucu düzgündür.[2]

–Oruc tutan şəxs asqırarkən ixtiyarsız olaraq boğazına və ya ağzına bir şey gələrsə, onu yerə tökməlidir. Özündən asılı olmayaraq həmin şeyi udarsa, eybi yoxdur. Müstəhəb ehtiyata görə həmin günün orucunun qəzasını da tutmalıdır.[3]

–Əgər bir şəxs bilərəkdən orucunu batil etsə və həmin gün orucunu açmaq üçün hansısa səbəb (məsələn xəstəlik) ortaya çıxsa, bu şəxsə kəffarə vacib olmaz.[4]

–Fitr və qurban bayramı günləri oruc tutmaq haramdır. Əgər bir şəxs şəbanın axırı və ramazanın əvvəli olduğunu bilmədən ramazanın əvvəl günü niyyəti ilə tutsa haramdır.[5]

## *XÜMS VƏ ZƏKATIN HÖKMLƏRİ*

Yeddi şeyə görə xüms vermək vacibdir:

1. Gəlir mənfəəti; 2. Mədən; 3. Xəzinə; 4. Harama qarışmış haram mal; 5. Üzgüçülük yolu ilə əldə olunan cəvahir; 6. Döyüşdə ələ keçirilən qənimət; 7. Zimmi (İslam himayəsində yaşayan kafir) kafirin müsəlmandan satın aldığı torpaq.

–Əgər qənaət yolu ilə, gəlir illik xərcdən artıq qalsa, artıq hissənin xümsü verilməlidir.[6]

–Bir şəxsin xərcini başqası ödəyirsə, əldə etdiyi bütün malın xümsünü verməlidir. Əgər gəlirinin bir hissəsini ziyarət və bu kimi başqa işlərə xərcləmiş olsa, yalnız qalan hissənin xümsü vacibdir.[7]

–İnsan malının xümsünü verməmiş bu maldan istifadə edə bilməz.[8]

–Xüms iki hissəyə ayrılmalıdır: xümsün bir hissəsi seyidlərin

---

[1] m. 1597.
[2] m. 1603
[3] m. 1616.
[4] m. 1639.
[5] m, 16 99.
[6] m. 1715.
[7] m. 1716.
[8] m. 1746.

payı, digəri imam payıdır. Vacib ehtiyata görə, xüms təqlid edilən müctehidin ixtiyarına verilməlidir. Müctehidin icazəsi ilə xümsü təyinatı üzrə xərcləmək olar. Onun bir hissəsi fəqirə, yetimə, yolda qalmış şəxslərə və seyidə çatdırılmalıdır. Digər hissəsini xərcləmək üçün müctehidin göstərişinə ehtiyac var.[1]

---

[1] m. 1790.

## ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR

## *(YAXŞILIĞA ƏMR, PİSLİYƏ QADAĞA)*

Qurani-kərimdə buyurulur: “Aranızda yaxşılığa əmr və pisliyə qadağa edən bir camaat olsun. Həqiqətən, onlar nicat tapmışlardır.[1] Beləcə, uyğun vəziyyət bütün müsəlman kişi və qadınlara vacib olmuşdur. Təəssüf ki, hazırda bu dini vəzifə arxa plana keçirilmişdir. Hər bir müsəlman bu ilahi vəzifənin dirçəlməsində qüvvəsi qədər çalışmalıdır.

Əmr be məruf və nəhy əz münkər dörd şərt daxilində vacib olur:

1. Əmr be məruf və nəhy əz münkər etmək istəyən şəxs nəzərdə tutduğu adamın vəzifəli olduğu işi tərk etməli olduğunu bilməlidir. Yaxşı və pisi bilməyən kəs üçün əmr və qadağa vacib deyil.

2. İnsan əmr və qadağasının təsirini ehtimal etməlidir. Əgər təsir etməyəcəyini bilsə, bu vəzifə vacib deyil.

3. Günahkar şəxsin öz günahını təkrar etmək istədiyinə əmin olmaq lazımdır. Onun öz günahını təkrar etməyəcəyi güman olunarsa, əmr və nəhy vacib deyil.

4. Əmr və nəhydə bir təhlükə olmamalıdır. İnsan bilsə və ya güman etsə ki, bu işdən onun canına, abır-həyasına və ya malına əhəmiyyətli bir zərər dəyə bilər, əmr və nəhy vacib deyil. Bu işin bəzi möminlərə zərər vuracağı ehtimal olunarsa, o vacib olmaz, bəzən isə haram olar.[2]

### *ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏRİN DƏRƏCƏLƏRİ*

1. Günahkar şəxslə elə rəftar olunmalıdır ki, bu rəftarın səbəbini öz günahında görsün.

2. Dil vasitəsi ilə əmr və qadağanın təsiri ehtimal olunarsa, bu vacibdir. Günahkar günahdan çəkindirilməli, vacib vəzifəni tərk edənə bu vəzifə əmr olunmalıdır.

3. Əmr be məruf və nəhy əz münkərin yalnız zor vasitəsi ilə təsir edəcəyi məlum olarsa, həddi aşmamaq şərti ilə məcbur

[1] “Ali-İmran”, 104.
[2] m. 1977.

etmək lazımdır.[1]

–Günahkarı günahdan çəkindirmək üçün vacib deyilsə, onun malına toxunmaq olmaz. Bu halda ehtiyata görə, tələf olunmuş malın misli və ya qiyməti ödənməlidir. Əgər ödənməzsə, insan zamin və günahkardır.

–Əgər günahın qarşısını almaq üçün günahkarı həbs etmək lazımdırsa, həddi gözləməklə bu iş vacibdir.[2]

–Pis işin qarşısını almaq üçün günahkarı yaralamaq və ya öldürmək lazım gələrsə, bu işə icazə verilmir. Belə işlər şəri hakimin səlahiyyətinə daxildir.[3]

## *BAXMAĞIN HÖKMLƏRİ*

–Kişinin, istər ləzzət məqsədi ilə, istər ləzzət məqsədi olmadan naməhrəm qadının bədəninə baxması haramdır. Ləzzət məqsədi ilə naməhrəm qadının üzünə və əllərinə baxmaq da haramdır. Amma ləzzət məqsədi olmasa, eybi yoxdur. Bununla belə, ehtiyata görə baxılmaya. Qadının da naməhrəm kişinin bədəninə ləzzət məqsədi ilə baxması haramdır. Ləzzət olmadan da əl və üz istisna olmaqla bədənə baxmaq haramdır. İnsanda şəhvət yaranmasa, baxmaqla harama düşmək qorxusu olmasa həddi-büluğ olmamış qızın üzünə, bədəninə, saçına baxmağın eybi yoxdur.[4]

–Ləzzət məqsədi, harama düşmək qorxusu olmadan, kafir qadının adətən açıq qoyduğu bədən hissələrinə baxmağın eybi yoxdur.[5]

–Bir-birinə məhrəm olan qadın və kişi ləzzət məqsədi olmadan, cinsiyyət üzvü istisna olmaqla, bir-birlərinin bədənlərinə baxa bilərlər.[6]

–Qadın həkim olan yerdə xəstə qadını kişi həkim müayinə edə bilməz; xəstə qadın da qadın həkim ola-ola özünü kişi həkimə müayinə etdirə bilməz. Qadın həkim olmasa və ya xəstəlik qadın həkimin müalicə edə bilmədiyi xəstəlik olsa, xəstə qadın kişi

[1] m. 2002.
[2] m. 2014.
[3] m. 2016.
[4] m. 2429.
[5] m. 2420
[6] m.2443.

həkimə müraciət edə bilər. Bu halda həkim ən az müayinə ilə kifayətlənməlidir.[1]

## *TARİXƏ BİR BAXIŞ*

### *HƏZRƏT ƏLİ (Ə) VƏ NAMAZ HALINDA FƏQİRLƏRƏ KÖMƏK*

Məsciddə qılınan namazın bərəkətlərindən biri ehtiyacı olanlara əl tutulmasıdır. İmkansızların məscidə üz tutub, möminlərdən kömək istəməsi bir adətdir. Bu adət Peyğəmbər (s) dövründə də vardı. Qurani-kərimdə bu adəti təsvir edən gözəl bir səhnə vardır: "Həqiqətən, sizin haminiz Allah, onun Peyğəmbəri, namaza durub, rüku halında zəkat verənlərdir."[2] Bu ayəni eşidənlər məscidə gəlib, ayənin kimin haqqında nazil olması ilə maraqlandılar. Məlum oldu ki, Həzrət Əli (ə) namazda olduğu vaxt məscidə fəqir daxil olur. İmam fəqiri işarə ilə çağırıb, barmağındakı üzüyü ona verir.

### *İMAM VƏ ŞİƏLƏRƏ QAYĞI*

Təbərsi yazır: "Harun ər-Rəşid ona gətirilmiş qiymətli libasları öz vəziri Əli ibn Yəqtinə bağışlayır. Bu libasların arasında xəz və qızılla toxunmuş bir rida da olur. Bu libas padşahların geyiminə oxşayır. Əli ibn Yəqtin bu libasa başqa hədiyyələr də əlavə edərək imam Kazimə (ə) göndərir. İmam həmin ridanı başqa bir adamla Əli ibn Yəqtinə qaytarır və ona göndərdiyi məktubda yazır:"Ridanı saxla və evdən bayıra çıxma. Bir gün lazımın olar." Əli ibn Yəqtin imamın buyuruğuna görə ridanı saxlayır.

Vaxt ötür, bir gün vəzir öz xidmətçilərindən birinə qəzəblənir, onu işdən kənarlaşdırır. Həmin xidmətçi Harunun yanına gedib deyir: "Əli ibn Yəqtin Musa ibn Cəfərin (imam Kazimin) imamətinə inanır, hər il malının xümsünü ona göndərir. Hətta sizin bağışladığınız ridanı da imama göndərmişdir." Harun qəzəblənib, vəzirini yanına çağırır və ridanın harada olduğunu soruşur. Əli ibn Yəqtin deyir: "Rida evdədir, onu bir parçaya bükmüşəm. Hər sübh və axşam açıb baxıram, təbərrük kimi öpürəm." Harun göstəriş verir ki, rida gətirilsin. Vəzir öz

---

[1] m. 2445.
[2] "Maidə", 55.

xidmətçisinə deyir:” Filan otaqda, filan sandıqda parçaya bükülü rida var. Tez get, onu gətir.” Xidmətçi gedib ridanı gətirir. Harun ridanı ətirlənmiş parçaya bükülü görüb, sakitləşir və deyir: “Onu geri qaytar, daha sənin haqqında heç kəsin pis sözünü qəbul etmərəm.” Sonra Harun öz vəzirinə başqa hədiyyələr də verir. Xəbərçilik edən xidmətçiyə min çubuq vurulması əmr edilir. Amma beş yüz çubuq vurulmamış xidmətçi dünyasını dəyişir.”

Məsum imamlar daim öz ardıcıllarının qayğısına qalmışlar. İmam Mehdi (ə) öz yaxınlarından birinə yazır: “Biz sizin haqqınızda heç vaxt süstlük etmir, sizi unutmuruq. Yoxsa müsibətlər üstünüzə axışar, düşmənlər sizə hakim olardılar.”[1]

## *UNUDULMAZ NAMAZ*

Hər il həcc mövsümündə Məkkə və Mədinə kamillik yolçularının misilsiz izdihamına şahid olur. Bu iki böyük şəhər zilhəccə ayında mələklər selini qarşılayır. İlahi səmalardan Kəbəyə üz tutmuş mələklər müsəlmanların həccinə, səyinə, səfasına şərik olurlar.

Bu mərasim qəməri tarixi ilə 1340-cı ildə daha əzəmətli oldu. Böyük şiə alimi mərhum ayətullah Seyyid Şərəfüddin Amili dünya müsəlmanlarının toplumuna xüsusi bir ab-hava gətirdi. Məlik Hüseynin ricası ilə Məscidül-həramda tə’yin olunmuş namaz mərhum Şərəfüddinin imaməti ilə qılındı. Bu, İslam tarixində Məscidül-həramda sünni və şiələrin şiə aliminin imaməti ilə qıldıqları ilk namaz idi. Sünni və şiələrin çiyin-çiyinə dayanıb, Əhli-beyt istəyincə namaz qılması mərhum Seyyidin ən böyük arzusu idi. Bu namaz haqqında illər uzunu iftixarla danışıldı.

## *QURAN MAARİFİ HAQQINDA*

“Gənclərin mağaraya sığınıb, ey Rəbbimiz bizə öz dərgahından mərhəmət qıl və işlərimizi bizim üçün səhmana sal” dedikləri anı xatırla.”[2]

---

[1] İbn Şəhr Aşub, “Mənaqibi ali-əbu Talib”, c. 3, s. 408.
[2] “Kəhf”, 10.

## *QURANDAN FAYDALANMA*

Hər bir ağıllı insan öz istedadlarının çiçəklənməsi üçün düzgün proqrama möhtacdır. Bu proqram sayəsində o öz ilahi və dəyərli məqsədlərinə çatır. Bu zülmət dünyada əsaslı proqramsız səadətə çatmaq mümkünsüzdür. Aləmlərin rəbbi Qurani-kərimi doğru yolu tapmaqda müsəlmanlar üçün proqram kimi tanıtdırır. İnsanlar bu nurani kitabdan istifadə etməklə öz ali məqamlarına çatmalı, dünya və axirətin həqiqi səadətini əldə etməlidir. Bir rəvayətdə İslam Peyğəmbəri (s) buyurmuşdur: “Quran Allahın süfrəsidir, ondan bacardığınız qədər bəhrələnin.”[1] Quran elə dəyərli kitabdır ki, insan onun həyatverici göstərişlərinə əməl etməklə qaranlıqdan çıxır, səadət yoluna düzəlir.

Allah-taala bu səmavi gövhər haqqında buyurur: “Allah, Onun lütfünə sığınanları Quranla salamatlıq yollarına yönəldir, öz izni ilə zülmətdən nura çıxarıb, doğru yola istiqamətləndirir.[2] Bu şərif ayədə maraqlı bir bildiriş gizlənmişdir: əgər insan Allahın razılığını qazanmaq üçün addım atarsa, Allah bu kitabın işığında ona üç nemət – hidayət, fərdi salamatlıq və ruhi sağlamlıq əta edər. Şübhəsiz ki, ilahi nemətlər müqəddəs ilahi zata təslim olan insanlara nəsib olur. Dünyada Quran buyuruqlarına əsasən, əməl və rəftar edən insanlar nəticədə onun bərəkətli təsirlərindən faydalanır.

Həzrət Əli (ə) xalqı Qurana əməl etməyə, onun hikmət dolu göstərişlərini hifz etməyə çağırır: ”İstəklərinizi Quran vasitəsi ilə Allahdan diləyin, Quranla dostluqda Allaha üz tutun, Quran vasitəsi ilə bəndələrdən bir şey istəməyin. Bəndənin Allaha yaxınlaşması üçün Qurandan yaxşı vasitə yoxdur. Bilin ki, Quranın şəfaəti qəbul, buyuruğu təsdiqdir. Qiyamətdə Quranın şəfaət etdiyi şəxs bağışlanar, Quranın şikayət etdiyi şəxs məhkum olar.”[3] İmam digər bir hədisdə buyurur: “Quranı öyrənin, ən üstün biliklər ondadır. Onun haqqında düşünün, o, qəlblərin baharıdır.

[1] “Biharül-ənвar”, c. 92, s. 19.
[2] “Maidə”, 16.
[3] “Nəhcül-bəlağə”, x. 176.

Onun nurunda şəfa axtarın, o, xəstə qəlblərin şəfasıdır.”[1]

Tanınmış pakistan şairi Əllamə İqbal Lahuri Quranı müsəlmanlıq, insan və dünyanın təkamülü üçün əsas səbəb göstərir:

*İstəyirsənsə müsəlman olasan,*
*Gerçək olmaz diləyin, yoxsa Quran.*
*Elə ki, dünyaya saldı işığın,*
*Səhnədən çəkdi keşişlər ayağın.*
*Açıram qəlbdəki gizli sözümü:*
*Bir işıqdır, yazı yox, bil düzümü*

## *İLAHİ KİTABA EHTİRAM*

İslam maarifində Qurana ehtiram ciddi tövsiyə olunmuşdur. Amma belə bir ehtiram o zaman mümkündür ki, insan ilahi kitabın göstərişləri ilə tanış olub, öz həyatının müxtəlif sahələrində həmin göstərişlərə əməl etsin. İctimai, elmi və əxlaqi yönümlərdə uyğun göstərişlərə əməl etmədən müqəddəs kitaba həqiqi ehtiram əlçatmaz olur. Allah-taala Quranla tanışlıq haqqında buyurur: “Ey insanlar, sizə Rəbbinizdən nəsihət, qəlblərinizdəkinə şəfa, möminlərə hidayət və mərhəmət gəlmişdir.”[2]

Bir rəvayətdə həzrət Peyğəmbər (s) həyatını Quran göstərişləri əsasında qurmayanlar haqqında buyurur: “Qiyamət günü üç şey xalqdan şikayət üçün səhnəyə gələr: onlardan biri Quran, digəri məscid, o biri isə Peyğəmbər ailəsidir (itrət).[3] Növbəti hədisdə buyurulur: “Əgər iztirab və fitnələr qaranlıq gecə kütləsi tək sizə hücum etsə, Qurana üz tutun! Çünki Quran şəfaət edər və onun şəfaəti qəbul olar.”[4] Bəli, Quranın şəfaəti təsirlidir və qaranlığı işıqlandırar. Bu ilahi kitab insana nifrin də edə bilər və bu nifrin qəbul olar. Quranın nifrininə bu kitabın göstərişlərinə arxa çevirənlər layiqdir.

---

[1] Həmin mənbə x. 110
[2] “Yunus”, 57.
[3] “Biharül-ənвar”, c. 7, s. 222.
[4] Həmin mənbə, c. 92, s. 17.

## *QURAN TİLAVƏTİ*

Dini maarif və Əhli-beyt buyuruqlarında ilahi kitabın oxunuşuna geniş yer ayrılır. Quran tilavəti müsəlmanların dini vəzifələrindəndir. Quran tilavəti oxunuş qaydalarına əməl etməklə yanaşı, ilahi buyuruqların mənasını anlamaq və onlara əməl etməkdən ibarətdir. Ayələrin onu oxuyana və dinləyənə təsir etməsi düzgün tilavət əlamətidir. Allah-taala bu barədə buyurur: "Ayələr onlara oxunarkən onların imanları artır."[1] Əbdüllah ibn Süleyman imam Sadiqdən (ə) "Quranı aramla (tərtil) oxu"[2] ayəsi haqqında soruşduqda imam buyurdu: "Əmirəl-möminin (ə) buyurmuşdur: "Yəni onu kamil şəkildə izhar et, şer tək sürətlə oxuma. Onu elə oxuyun ki, qəlbə təsir etsin, bərk qəlbimizi yumşaltsın. Məqsədiniz surəni bitirmək olmasın."

## *GƏNCLƏRİN MƏCLİSİNDƏ QURAN QİRAƏTİ*

İmam Sadiq (ə) buyurmuşdur: "Bir gün İslam Peyğəmbəri (s) ənsar cavanlarından bəzilərini tərif edib buyurdu: "Sizə Qurandan bir ayə oxumaq istəyirəm. Hər kəs ağlasa behişt ona vacib olar." Sonra həzrət "Zumər" surəsinin 17-ci ayəsini oxudu. Bir nəfərdən başqa məclisdəki bütün cavanlar ağladılar. Həmin gənc Peyğəmbərə (s) ərz etdi: "Ya Rəsuləllah, mən özümü ağlamış kimi göstərsəm də, gözümdən yaş gəlmədi. Həzrət buyurdu: "Mən həmin ayəni bir də oxuyuram, kim özünü ağlamış kimi göstərsə, behişt ona vacibdir…"[3] Beləcə, məsciddəki bütün gənclər behişt əhli oldular.

## *QURAN OXUNUŞUNUN GƏNCƏ TƏSİRİ*

İlahi kitabın səadət səbəbi olan göstərişlərinə əməl hər bir gəncin müsbət xüsusiyyətidir. Bu xüsusiyyət həyata məna verir, dünya və axirət fəaliyyətlərinə yardımçı olur. İmam Sadiq (ə) buyurur: "Hər kəs gənclik dövründə iman gətirərək Quran oxusa, Quran onun ətinə-qanına qarışar, Allah-taala onu söz aparan xoşrəftar mələkləri ilə dost edər. Qiyamətdə Quran belə gənclə od arasında pərdə olaraq deyər: "Pərvərdigara, bütün fəhlələr öz

[1] "Ənfal", 2.
[2] "Muzəmmil", 4.
[3] "Səfinətül- bihar", c. 2, s. 24.

muzdunu aldı, mənim fəhləmdən başqa. Ən qiymətli hədiyyəni ona əta et."[1]

### *QURAN OXUMAĞIN SAVAB VƏ FƏZİLƏTİ*

Quran İslam Peyğəmbərinin (s) möcüzəsidir. Onun şərif ayələrini tilavət etməklə müsəlmanlar səadət və həqiqətə çatır. Bu səmavi gövhərin əzəmət və məqamı, onun qiraəti haqqında rəvayətlər çoxdur. Həzrət Peyğəmbər (s) və məsum imamlardan nəql olunmuş bu rəvayətlərdən bəzilərinə nəzər salaq.

Həzrət Əli (ə) buyurur: "Bir evdə Quran oxunarsa, Allah zikr edilərsə, bu evin bərəkəti artar, mələklər oraya get-gəl edər, şeytanlar oradan uzaqlaşar. Ulduzlar yer əhli üçün parladığı kimi, bu ev də göy əhli üçün parlayar."[2] Rəvayətdən göründüyü kimi, həzrət Əli (ə) müsəlmanları evdə Quran oxumağa ruhlandırır. Bu əməlin ev sahibi üçün bir çox faydaları vardır:

–İlahi kitabın oxunması evlərdə İslam maarifini, Quran hökmlərini canlandırır. İnsan evdə Quran oxuyarkən ailə üvləri də bu işə həvəslənir. Nəticədə Quran tilavəti cəmiyyətdə genişlənir, Quran qarilərinin sayı artır.

–Quran ayələri tilavət olunan evdə dini şüarlar önə çəkilir. Sübh və axşam ətrafa yayılan nurani Quran sədaları eşidənlərin könlündə iz qoyur. Quran oxumaqla qəlblərdə İslam və iman çiçəklənir.

–Quran tilavəti səbəbindən evlərdə nemət və bərəkət artır. Mələklər bu evə nazil olur, şeytanlar isə bu evdən uzaqlaşırlar. Hafizin təbirincə, "divlər də qaçır, evdə əgər Quran oxunsa."

Həzrət Peyğəmbər (s) bir rəvayətdə buyurur: "Quran oxumağı unutma. Çünki ilahi kitabın tilavəti günahların kəffarəsi, oda sipər, əzabdan qurtuluşdur."[3] Bəli, Quran tilavəti günahların kəffarəsidir!

Digər bir hədisdə Quran tilavəti "qəlblərin nuru" kimi tanıtdırılır. Allahın rəsulu (s) buyurur: "Qəlblər dəmir tək cingildəyir. Cilası isə Quran oxumaqdır."[4]

Həzrət Əli (ə) dəyərli "Müttəqin" xütbəsində Quran tilavətini

---

[1] "Üsule-Kafi", c. 4, s. 405
[2] "Üsule-Kafi",c. 2, s. 312.
[3] "Biharül-ənвar", c. 92, s. 17
[4] "Kənzul-ümmal", r. 2441

dərdlərə dərman bildirir: (Müttəqilər) Gecəni Quran oxumaqla başa vurar, Quran oxuyub qəmlənər, dərdlərinin dərmanını Quranda axtararlar.”

## *ƏBƏDİ İDEALLAR*

Həzrət Peyğəmbər (s):

“Allah insanda üç xüsusiyyəti sevir: az danışmaq, az yatmaq, az yemək.”[1]

“Dua mərhəmətin, dəstəmaz namazın, namaz behiştin açarıdır.”[2]

İmam Əli(ə):

“Öz eyiblərindən agah olan kəs başqalarında eyib axtarmır.”[3]

“Yağlıdillikdən uzaq ol, çünki o iman sifəti deyil.”[4]

Həzrət Zəhra (s):

«Əgər əmrlərimizə əməl etsən, qadağalarımızdan çəkinsən şiələrimizdən olacaqsan.»[5]

“Biz Əhli-beyt məxluq arasında Allahın vasitəsi, Onun seçilmişləri, paklar məhəlli, Allahın aşkar dəlili, peyğəmbərlərin varisləriyik” (“Səhifətuz-Zəhra”, s. 27);

İmam Həsən (ə):

“Allahın nemətlərinə görə təşəkkür etməmək alçaqlıqdır.”[6]

“Sizə təqva və daimi təfəkkürü vəsiyyət edirəm. Çünki bütün yaxşılıqların əsası düşünməkdir”.[7]

İmam Hüseyn (ə):

“Həqiqətən xalqın sizə ehtiyacı Allahın böyük nemətlərindəndir. Onların ehtiyacını ödəməkdə süstlük göstərməyin.”[8]

---

[1] “Əl-вaizul-ədədiyyə,” s. 147.
[2] “Nəhcül-fəsahə”, s. 332
[3] “Müstədrəkul-вəsail”, c. 11, s. 316.
[4] “Nəhcül-bəlağə”, k, 347.
[5] “Biharül-ənвar”, c. 68, s. 155.
[6] “Tuhəful-uqul”, s. 236
[7] “Məcmueye- Bərram”, c.1, s. 53.
[8] “Biharül-ənвar”, c. 71, s. 318.

"Bağışlayan kəs ucadır. Paxıl və dargöz adam isə zəlil olur."[1]

İmam Zeynal-abidin (ə) (Səccad):

"Qeybətdən çəkinin, çünki qeybət xalqın ətini yeyənlərin xuruşudur."[2]

"Allahın verdiyi ruziyə qənaət edən xalqın ən ehtiyacsızı olar."[3]

İmam Baqir (ə):

"Allaha təvəkkül edən kəs məğlub olmaz."[4]

"Həqiqətən, möminlərin ən kamili xoşrəftarlı olandır."[5]

İmam Sadiq (ə):

"Əgər bir mömin günah etmək qərarına gəlsə ruzisindən məhrum olacaq."[6]

"Dünya işlərin yaxşıdırsa, dinindən ötrü nigaran ol."[7]

İmam Kazim (ə):

"Ağılın dəlili təfəkkür, təfəkkürün dəlili sükutdur."[8]

"Din qardaşının qeybətini edən şəxs məlundur."[9]

İmam Riza (ə):

"Zəif insanlara kömək etmək sədaqətdən üstündür."[10]

"Ağıl insanın dostu, nadanlıq isə düşmənidir."[11]

İmam Cəvad (ə) (Məhəmməd Təqi):

"Şükrü yerinə yetirilməyən nemət bağışlanmayan günah kimidir."[12]

---

[1] "Mizanul-hikmət", c. 2, s. 184.
[2] "Müstədrəkul-вəsail", c. 9, s. 113.
[3] "Tuhəful-uqul", s. 285.
[4] "Müstədrəkul-вəsail", c. 11, s. 328.
[5] "Üsule-kafi", c. 3, s. 121.
[6] "İqabul-əmal", s. 521.
[7] "Tuhəful-uqul", s. 377.
[8] "Mizanul-hikmə", c. 5, s. 436.
[9] "Mizanul-hikmə", c. 7, s. 333.
[10] Tuhəful-uqul", s. 470.
[11] "Tuhəful-uqul", s. 467.
[12] "Biharul-ənвar", c. 75, s. 82.

“Nəfsinə itaət edən kəs düşmənin arzularını yerinə yetirir.”[1]

İmam Hadi (ə) (Əliyyən Nəqi):
“İnsanlar dünyada var-dövlətləri, axirətdə isə əməlləri ilə yoldaş olacaqlar.”[2]
“Allahdan qorxandan qorxar, Allaha itaət edənə itaət edərlər.”[3]

İmam Həsən Əskəri (ə):
“Axmağın qəlbi ağzında, aqilin ağzı qəlbindədir.”[4]
“Təvazökarlıq elə bir nemətdir ki, kimsə ona həsəd aparmır.”[5]

İmam Zaman (ə):
“Peyğəmbər qızı Fatiməye Zəhra (s) mənim üçün layiqli nümunədir.”[6]
“Biz Peyğəmbər ailəsindən kənarda elm əldə etmək bizi inkar etməkdir.”[7]

## *ƏXLAQ VƏ HƏYAT*

### *İXLASIN (SƏMİMİLİYİN) NİŞANƏLƏRİ*

İnsanların əməlləri zahirən bir-birinə oxşayır. Olsun ki, hamı özünü müxlis (xalis, riyadan uzaq) hesab edir. Amma ixlasın əlamətlərinə əsasən həqiqi müxlisi tanımaq mümkündür:

1. Müxlis (ixlaslı) insan Allahdan savayı heç kəsdən təsdiq və təşəkkür gözləmir. İmam Sadiq (ə) buyurur: “O əməl xalisdir ki, Allahdan başqa heç kəsdən tərif istəməyəsən.”[8]

2. Müxlis üçün aşkar və xəlvət arasında fərq yoxdur. Riyakar isə belə olmur. Həzrət Əli (ə) buyurur: “Riyakarın üç əlaməti var: göz qabağında həvəslə çalışır, tənhalıqda həvəssiz işləyir; bütün işlərinə görə tərif umur.”[9]

---

[1] “Səfinətül-bihar”, c. 2, s. 728.
[2] “Biharul-ənвar”, c. 78, s. 368.
[3] “Biharül-ənвar”, c. 78, s. 368.
[4] “Tuhəful-uqul”, s. 519.
[5] “Bəsailüş-şiə”, 16, s. 98.
[6] “Biharül-ənвar”, c. 53, s. 180.
[7] “Səhifətul-Məhdi”, s. 334.
[8] “Bəsailüş-şiə”, c. 1, s. 43.
[9] Həmin mənbə, c. 1, s 45.

3. Müxlis işdən yorulub, həvəsdən düşmür;

4.Müxlis gördüyü işi vəzifə bildiyi üçün bu işə görə peşman olmur (məsələn, O, Allaha xatir salam verdiyi üçün salamı alınmayanda peşman olmur);

5. Müxlis başqalarının onun işindən xəbər tutmasını istəmir (məsələn, sədəqəni hamıdan gizli verir);

6. Müxlis işlərin onun adına yazılmasını, tanınmasını arzulamır.

## *VİLAYƏTÇİ OLMAQ İSTƏYİRSİNİZMİ?*

Vilayətçilik (Əhli-beyt və əmr sahibləri ilə dostluq) müsəlmanlar arasında dəyərli bir xüsusiyyət sayılır. Vilayətçini tanımaq üçün məsumların kəlamlarını meyar götürə bilərik.

### *1.ALLAHA İTAƏT*

Vilayətçiliyin xüsusiyyətlərindən biri ilahi göstərişlərə itaət etməkdir. İmam Baqir (ə) Cabir Cofiyə buyurdu: “Ey Cabir! Mənim salamımı ardıcıllarıma yetir və onları agah et ki, Allahla bizim aramızda qohumluq yoxdur. Kimsə itaət və bəndəlikdən başqa bir yolla Allaha yaxınlaşa bilməz. Ey Cabir! Hər kəs Allaha itaət etsə və bizi sevsə, dostumuzdur. Allaha itaətsizlik edənlər üçün bizimlə dostluq faydasızdır.”

Həzrət Əli (ə) buyurmuşdur: “Məhəmmədə (s) o şəxs dostdur ki, ondan uzaq olsa da, Allaha itaət edir. Məhəmmədin (s) düşməni o kəsdir ki, ona yaxın olsa da, Allaha itaətsizlik edir.”

### *2. ARDICILLIQ*

Şiəlik iddiasında olmaq kifayət deyil. Əhli-beytin yolunu getmək, ona tərəfdar olmaq lazımdır. Rəvayətlərdə, şiə zümrəsindən olmaq üçün əmələn Əhli-beyt yolunda olmaq şərt hesab olunur. İmam Sadiq (ə) buyurur: “Dildə, sözdə bizə ardıcıl olduğunu bildirib, əməldə bizim yolumuzla müxalif olanlar bizim şiələrimiz deyil. Bizim şiələrimiz o kəslərdir ki, dildə, qəlbdə və əməldə bizə ardıcıldırlar.”[1]

Bir kişi imam Həsənin (ə) xidmətinə gəlib dedi: “Mən sizin şiələrinizdənəm.” İmam (ə) buyurdu: “Ey Allah bəndəsi, göstərişlərə, əmr və qadağalara itaət edirsənsə, düz deyirsən. Belə deyilsə, yox!”

---

[1] “Bəsailüş-şiə”, c. 15. s. 247

Əbu Cəhəm deyir: “İmam Rizaya (ə) ərz etdim ki, sənə fəda olum, sizin yanınızda yerimi bilmək istəyirəm. İmam (ə) buyurdu: “Gör, sənin yanında mənim yerim necədir?”

### *3. ƏVVƏL, BAŞLANĞIC VAXTDA QILINAN NAMAZ*

Namazın əvvəl vaxtda qılınması Əhli-beytin xüsusi diqqətlə yanaşdığı bir məsələdir. Şiəlik iddiasında olan şəxs namazın əvvəl vaxtda qılınmasına diqqət yetirməlidir.

İmam Əli (ə) buyurmuşdur:

“Bizim şiələrimizi iki xüsusiyyətlə əsasən sınayın. Bu iki xüsusiyyət onlarda olarsa, demək, bizim şiələrimizdəndirlər: namazın əvvəl vaxtda qılınmasına diqqət və mömin qardaşlarla mal bərabərliyi. Bu xüsusiyyətə malik olmayanlardan uzaqlaşın.”[1]

Nəql olunur ki, həzrət Peyğəmbər (s) buyurdu: “Namazı yüngül sayan (ona ciddi yanaşmayan) məndən deyil.”[2]

### *4. ƏHLİ-BEYT DÜŞMƏNLƏRİNƏ NİFRƏT*

Vilayətçi insanların xüsusiyyətlərindən biri Əhli-beyt düşmənlərindən uzaq gəzmək, onlara nifrətdir. Bir nəfər imam Sadiqə (ə) ərz etdi ki, filankəs sizinlə dost olduğunu deyir, amma sizin düşmənlərinizlə düşmənçilikdə zəifdir. İmam (ə) buyurdu: “Bizim düşmənlərimizə nifrət etmədiyi halda, bizə məhəbbətindən danışan kəs yalançıdır.”[3]

### *GÜNAH VƏ ONUN İNSAN HƏYATINA TƏSİRİ*

Bəzi günahlar insan həyatında hissolunmaz əsərlər qoyur. İnsanın axirət həyatı onun bu dünyadakı əməllərinin inikasıdır. Amma bəzi reaksiyalar elə bu dünyada baş verir. Quranda buyurulur: “Bir qövm öz halını dəyişmədikcə Allah da onun halını dəyişməz.”[4] Deməli, insanın əməlləri onun həyatında dəyişikliklərə səbəb olur. Amma pəhrizkarlıq (təqva) əsas götürüldükdə ilahi nemətlərin çoxalması üçün şərait yaranır. Allah-taala buyurur: “Əgər o məmləkətlərin əhli iman gətirib, pəhriz etsəydilər, başlarına göydən və yerdən bərəkət

---

[1] “Cameül-əxbar”, s. 35.
[2] “Fürue-kafi”, c. 3, s. 269.
[3] “Biharul-ənвar”, c. 27, s. 58
[4] “Rəd”, 11.

yağdırardıq."[1] Quran ayələrinə əsasən, günah və itaətsizlik insan üçün maddi və mənəvi problemlər yaradır, nemətlərin qarşısını kəsir. Əfsus ki, əksər cəmiyyətlərdə bir çox günahlar artıq günah sayılmır, onların nəticələri kimsəni narahat etmir. Din alimləri və övliyaların həyatına nəzər salsaq görərik ki, onlar günahdan uzaq olmaqla yanaşı, günah düşüncələrdən də çəkinmişlər. Bir arifdən soruşurlar ki, əgər günah etsən, nə hala düşərsən? Arif sualın cavabında buyurur: "Allahdan kömək istəyirəm ki, günah barədə düşünməyim."

Böyük (kəbirə) günah odur ki, Allah-taala bu günaha görə cəhənnəm vəd etmişdir. Bəzi böyük günahları sadalayır və ümid edirik ki, Allahın yardımı ilə həmin günahlardan çəkinəcəyik:

1. Allaha şərik qoşmaq;
2. Günahsız insanı qətlə yetirmək;
3. Ağvalideynlik (valideynin üzünə qayıtmaq);
4. Cihaddan qaçmaq (fərarilik);
5. Yetimin malını zorla yemək;
6. Sələmçilik;
7. Pak qadına qarşı zina ittihamı;
8. Zina (qanunsuz cinsi əlaqə);
9. Yaxınlarla əlaqəni kəsmək;
10. Zülm;
11. Bəndələri Allahın yolundan azdırmaq;
12. Allahın adından yalan demək;
13. Təkəbbür;
14. İsraf;
15. Zalımlara arxalanmaq;
16. Allahın rəhmindən ümidsizlik;
17. Əskik satmaq, ucuzu bahaya qatıb satmaq;
18. Özünü Allahın qəzəbindən amanda bilmək;
19. Oğurluq;
20. Sehr-cadu;
21. Haram musiqi (qina) və boş işlərlə məşğulluq;
22. Yalan and;
23. Qeybət və böhtan.

Əmmarə (pisliyə çağıran) nəfs insanın qəlbində vəlvələ salıb,

[1] "Əraf", 96.

onu doğru yoldan sapdırır. Gözəl olar ki, insan gənclik dövründə, hələ günaha batmamış, günah barədə düşüncələrdən çəkinə. Bu məqsədə çatmaq üçün aşağıdakı göstərişlər çox faydalıdır:

## 1. İctimai mühit

Öz get-gəllərimizə, görüşlərimizə diqqətli olaq. Zəruri olmayan təmaslardan, xoşagəlməz mühitlərdən çəkinək.

*Bir abidi yalın dağlarda gördüm,*
*Dünyadan bir dağla çəkmişdi əlin.*
*Soruşdum: şəhərdən uzaqsan niyə,*
*Qır qəlbin kəməndin, qatıl səs-küyə!*
*Dad etdi çaşıran gül çöhrələrdən,*
*Dedi: gözüm seçmir xeyiri şərdən.*

Mərhum Ağa Mirza Cəlal Məliki Təbrizi "Liqaullah" risaləsində buyurur: "Tövsiyə edirəm ki, saleh və imanlı insanlarla yaxınlıq edin. Məscid kimi yerlərdə daha çox olun. Hal əhli olan ariflərin həyatını mütaliə etməklə ruhunuzu gücləndirin, ona istiqamət verin."

## 2. Fiziki və psixoloji şərait

Boş vaxtı səmərəli keçirmək, idman, mütaliə, səfərə çıxmaq kimi faydalı işlərlə məşğul olmaq insanı günahdan uzaqlaşdıran amillərdir.

## 3. Zikr və ibadət

Vacib dini vəzifələrə diqqət, xüsusi ilə əvvəl vaxtda namazın qılınması, Quran qiraəti, ardıcıl şəkildə zikr insanın günahdan çəkinməsi üçün böyük təsirə malikdir.

## *GÜNAHIN TƏSİRLƏRİ*

Əvvəla, günah qəlbi qaraldır. Günaha yol verən insan daxilində Allahın əmanət qoyduğu pak fitrətə əsasən xəcalət çəkir, peşman olur. Amma daxili zəiflik onu yenidən günaha sürükləyə bilər. Günahın təkrarlanmasının fəlsəfəsi peşmançılığın həqiqi

olmamasındadır. İnsanın ruhunu Quranın “nəsuh” adlandırdığı həqiqi tövbə paklaya bilər. Tövbə həqiqi olmadıqda insanın qəlbində günah tozu qalır. İmam Baqir (ə) buyurur: “Qəlbində ağ nöqtə olan bəndə günah etdikdə həmin bəyazlıqdan qara bir nöqtə çıxır. Tövbə bu qaraltını aradan qaldırır. Getdikcə günaha batan insanın qəlbində qaraltı genişlənir, nəhayət, bütün qəlbi bürüyür. Bu halda həmin qəlb sahibi heç vaxt xeyirə qayıtmayacaq.”[1]

Bəzən nəsihət və moizə qəbul olunmur. Allah-taalanın buyuruğuna əsasən, çox günah edən insanın qəlbinə elə bir qıfıl vurulur ki, bu qıfılı heç bir açar aça bilmir. Belə insanlar heç vaxt həqiqəti tanıyıb, xeyir yol ilə gedə bilmirlər.

## *İKİ BÖYÜK GÜNAH*

### 1. Namazın tərki (namaz qılmamaq)

Namaz ən mühüm dini göstərişdir və digər ibadətlərin qəbulu onun qəbulundan asılıdır. Quranın buyuruğuna əsasən, namaz insanı alçaq və çirkin işlərdən uzaqlaşdırır. Namazın vacibliyini inkar edərək namaz qılmayan kəs kafir və dindən xaricdir. Namazın vacibliyini inkar etməyib, tənbəllik üzündən namaz qılmayan şəxs fasiqlər zümrəsinə daxildir. Həzrət Peyğəmbər (s) buyurur: “Bilərəkdən namaz qılmamaq və ya onu yüngül saymaq müsəlmanı kafir edər. İmanla küfr arasında məsafə namazın tərki qədərdir.”[2] Qurani-kərimdə də namaz qılmamaq böyük günah sayılır və cəhənnəmə düşməyin əsas səbəbi kimi namazın tərki göstərilir.

Allah bizim namaz və orucumuza ehtiyaclıdırmı? Axı qadir Allahın aciz insana nə ehtiyacı ola bilər?! Namaz nemətlər müqabilində Allaha təşəkkürdür, Allahla rabitədir. Namazın misilsiz fərdi və ictimai faydaları vardır.

Biz gündəlik həyatımızda tez-tez namaz qılmayan insanlarla rastlaşırıq. Onlara məntiqi və mülayim şəkildə namazın zərurətini anlatmaq hər birimizin dini vəzifəsidir. Namaza dəvəti qəbul etməyən insanlarla yaxınlığa icazə verilmir. Həzrət Peyğəmbər (s) buyurur: “Namaz qılmayan adama kömək edən şəxs birincisi Adəm, sonuncusu Məhəmməd (s) olmaqla yetmiş peyğəmbəri

---

[1] “Üsule- Kafi”.
[2] “Bəsailüş-şiə”, c. 4, s. 42.

öldürmüş şəxs kimidir.” Namaz qılmayanlarla dostluq pak insanı doğru yoldan azdırır, bədbəxtliyə düçar edir.

2. Müasir insan sadə həyat tərzindən ayrılıb, modern yaşayışa uz tutduğundan mənəvi böhrana düçar olmuşdur. Böyüklərin, xüsusi ilə də ata-ananın təcrübəsinə arxa çevrilməsi bu böhranın tərkib hissələrindəndir. Bu böhran ucbatından cəmiyyətdəki insani münasibətlər də pozulmuşdur. Bütün bu səbəblərdən övladlar valideynlərin haqqında diqqətsizlik göstərir, onların hörmətini saxlamaq barədə düşünmürlər. Hansı ki, valideynin haqqını yerinə yetirməmək böyük günahlar cərgəsindədir. Həzrət Peyğəmbər (s) buyurur: “Kəbirə (böyük) günahların ən böyüyü Allaha şərik qoşmaq və ağvalideynlikdir.” ; “Valideyni incitməkdən çəkinin. Behiştin qoxusu min illik yoldan duyulsa da, ağvalideynlər bunu anlamaz.”[1]

Şübhəsiz ki, ata-ananı incitmək dedikdə, onları fiziki cəhətdən əziyyət vermək nəzərdə tutulmur. Valideyni narahat edəcək bütün hərəkətlər ağvalideynlik hesab olunur. Qurani-kərimdə buyurulur: “Onlara “uf” belə demə.”[2] Digər bir ayədə oxuyuruq: “Allah məni (İsanı) anama qarşı olduqca itaətkar və nəvazişkar etdi…”[3]

Ağvalideylik səbəbindən namazlar qəbul edilmir, günahlar bağışlanmır. Hansı ki, valideynə ehtiram ömrü uzadır, nemət və hörməti artırır.

## *ƏHLİ-BEYT DOSTLARININ XÜSUSİYYƏTLƏRİ*

Hər bir seçimdə olduğu kimi, dost seçimində də meyarlara ehtiyaclıyıq. Bəzi meyarları sadalayaq:

### 1. İman və təqva

İmam Sadiq (ə) buyurur: “Yer üzünün qaranlıqlarında olsalar da, ömrünü bu yolda əldən versən də, təqvalı dostlar ardınca get.”

### 2. Sirsaxlama

Allah-taala öz bəndələrinin sirrini qoruduğu kimi, biz də öz dostlarımızın sirrini açmamalıyıq.

### 3. Yekrənglik

Bu xüsusiyyət yalnız sağlam şəxsiyyətə malik insanlarda olur. Həzrət Əli (ə) buyurur: “Həqiqi dost bəla və çətinlik vaxtı, sən

[1] “Muəccəmul-овсət”, 6, s. 18.
[2] “İsra”, 23
[3] “Məryəm”, 32.

olmayanda və sən öləndən sonra dostluğu unutmur."[1]

**4. Çətinliyə dözüm**

Həqiqi dost çətin gündə dostunu tənha buraxmır, belə vaxtlarda ona daha yaxın olur, onun dərdinə şərik olur. Loğman öz oğluna buyurur: "Öz dostunu yalnız ehtiyacın olanda tanıyarsan."[2]

**5. Fəzilət və əxlaq**

Dostlar bir-birlərinin xasiyyətlərini götürdüklərindən, mənəviyyatlı dost seçənlərin şəxsiyyəti inkişaf edir. Həzrət İsa (ə) buyurur: "Elə adamlarla dostluq edin ki, onları görməklə Allahı xatırlayın, danışıqları elm və biliyinizi artırsın, rəftarları sizi axirətə həvəsləndirsin."

---

[1] "Bəsailuş-şiə", c. 12, s. 26.

[2] "Biharul-ənвar", c. 68, s. 426.

## İSTİFTAAT

## *(ŞƏRİ SUALLAR)*

Sual: Zöhr və Əsr (günorta və ikindi) namazlarının vaxtı qürubadək, yoxsa məğrib (şam) azanınadəkdir?

Cavab: Məğrib azanınadək.[1]

Sual: Əgər bir xəstə zərər qorxusu ilə namazı qiblənin əksinə qılarsa və namazı bitirdikdən sonra əbəs yerə qorxduğunu başa düşərsə, vəzifəsi nədir?

Cavab: Namazı təzələməlidir.[2]

Sual: Xüms verməyən və xüms ili təyin etməyən kəs həmin pulla aldığı paltarda namaz qıla bilərmi?

Cavab: Xüms düşən və xümsü verilməmiş pul ilə alınan paltarla qılınan namaz batildir və bu libas qəsb olunmuş hökmündədir.[3]

Sual: Bir şəxs dişlərini təmizləyərkən ağzı murdarlanarsa, namaz qılmaq üçün ağzını suya çəkməlidirmi?

Cavab: Ağızın çölü pak olarsa, namaz düzgündür.[4]

Sual: Əgər ana, bədəni murdarlanmış uşağı namaz vaxtı qucağına alsa, namazı batildirmi?

Cavab: Əgər uşağın üstündə nəcasət və ya ayıb yeri örtə biləcək murdarlanmış (mütənəccis) libas olmasa, eybi yoxdur.[5]

Sual: Əgər ata xüms verməsə, onun evində və döşənəcəklərinin üstündə namaz qılmaq olarmı?

Cavab: Əgər evin yerinə və döşənəcəklərə xüms düşdüyü bilinmirsə, namaz qılmağın eybi yoxdur.[6]

---

[1] “Cameül-məsail”, c. 1, s. 232.
[2] Həmin mənbə c. 1, s. 238
[3] H .m. s. 242.
[4] h. m. s. 246.
[5] h. m. s. 259
[6] h. m. s. 261.

Sual: Əgər namaz möhürünün bir tərəfi çirkli və bir tərəfi qeyri-hamarsa, çirkli tərəfə səcdə etmək düzgündürmü?
Cavab: Saf səthə səcdə etmək vacib deyil, alın ikiriyallıq (pul sikkəsi) qədər möhürə toxunarsa və düzgün səcdə edilərsə, namaz düzgündür.[1]

Sual: Bəziləri namazda qunut tutarkən əqiq üzüyün qaşını üzüyuxarı çevirirlər. Bu hərəkətin əsası varmı?
Cavab: Bu barədə rəvayət məlum deyil. Amma həzrət Peyğəmbərin (s) buyuruğuna görə, əqiqə baxmaq bəyənilən işdir.[2]

Sual: Bir şəxs neçə illər namaz qıldıqdan sonra başa düşüb ki, namazları səhv qılıb. Namazlarının qəzasını qılmalıdırmı?
Cavab: Əgər öyrənib düzgün qıla biləcəyi halda tənbəllik edib səhv qılmışsa, onları təzələməlidir.[3]

Sual: Bir şəxs günortanın əvvəlində vətənində namazını qılmayıb, səfərə çıxmışdır. Hər hansı səbəbdən səfərdə olduğu vaxt da namazını qılmayıb qəzaya vermişdir. Vətənə qayıtdıqdan sonra həmin namazı tam, yoxsa şikəstə (yarı) qılmalıdır?
Cavab: Namaz səfərdə qəzaya getdiyi üçün şikəstə qılınacaq.[4]

Sual: Meyit namazının qəzası üçün qadın əcir (muzdla qılan) edilə bilərmi?
Cavab: Əgər qadın qiraət və namaz məsələrini (namazın nə vaxt batil olduğunu) bilsə, qadınlıq hüquq və vəzifələri ilə zidd olmasa, bu namazları qıla bilər.[5]

Sual: Məkkə və Mədinədə, xüsusi ilə Məscidül-həram və Məscidün-nəbidə sünnə əhlinə iqtida edərkən möhür qoymaq lazımdır, yoxsa yox?
Cavab: Lazım deyil. Məsciddəki həsir və ya daş döşəmədən

[1] h. m. s. 261.
[2] “Müstədrəkul-вəsail”, c. 3, s. 297
[3] “Cameül-məsail”, s. 343.
[4] h. m. s. 384
[5] h. m. s. 391

istifadə etmək olar.[1]

Sual: Bir xanım vətənindən kənara ərə getmişdir və hazırda ərinin vətənində yaşayır. Bu xanım anadan olduğu yerə gəldikdə namaz və orucunun hökmü nədir?
Cavab: Əgər bu xanım öz vətənindən çıxıb, həmişəlik ərinin vətənində yaşamaq qərarına gəlmişsə, ərinin vətəni ona vətən hesab olunar. Hər hansı bir məqsədlə müvəqqəti olaraq anadan olduğu yerə gəldikdə namazı şikəstədir və oruc tuta bilməz. Yalnız on gün qalmaq qərarına gəlsə, namazını tam qılar və oruc tuta bilər.[2]

Sual: Tələbə bir yerdə on gün qalmaq qərarına gəlir. Amma dərs keçilmədiyi üçün on gün tamam olmamış səfərə çıxır. Belə bir müsafirətə icazə verilirmi?
Cavab: Eybi yoxdur. (h. m. s. 484)

Sual: “Böyük şəhər” (“bilade kəbirə”) dedikdə nə başa düşülür?
Cavab: Şimalından cənubuna, şərqindən qərbinə hərəkət “səfər” sayılan fövqəladə böyük şəhərlər “böyük şəhər” adlandırılır.[3]

Sual: Dost-tanışların vəfat məclisində iştirak etmək üçün kitab əhli məscidə daxil ola bilərmi?
Cavab: Əgər məscidə hörmətsizlik sayılmazsa, bu işin qarşısını almaq vacib deyil.[4]

Sual: Bəzi məntəqələrdə yer çatışmadığından şagirdlərin imtahanları məsciddə keçirilir. İmtahanlarda iştirak edən əksər qızlar həddi-büluğ olduğundan, şübhəsiz ki, onlardan bəziləri aybaşı vəziyyətində olur. Bu halda qızların məsciddə imtahan verməsi düzgündürmü?
Cavab: İmtahan keçirənlər bu məsələyə riayət etməli, imtahanları ən azı məsciddə yox, hüseyniyyədə keçirməlidirlər.

[1] h. m. s. 424.
[2] h. m. s. 470.
[3] h. m. s. 519
[4] h. m. s. 285.

Sual: Məscid və hüseyniyyələrdə dini bayramlar, imamların doğum günləri qeyd olunur, dini şerlər oxunur. Bu məclislərdə əl çalmaq olarmı?

Cavab: Məscid, hüseyniyyə və digər müqəddəs məkanlarda istənilən bir məqsədlə əl çalmaq olmaz. İslam və şiəlik tarixi boyu müsəlmanların şüarı, alqışı salavat zikri olduğundan bütün yerlərdə, xüsusi ilə də imamların xatirəsi ilə bağlı yığıncaqlarda dini hisslərin salavatla bildirilməsi münasibdir.[1]

Sual: Ramazan ayında diş fırçalamağın eybi varmı?

Cavab: Eybi yoxdur. Amma dişi fırçaladıqdan sonra ağız suyunu kamil şəkildə yığıb kənar etmək lazımdır ki, fırçanın suyu udulmasın.[2]

Sual: Boğazdakı bəlğəmi udmaq orucu batil edirmi?

Cavab: Bəlğəm ağıza daxil olmamış udularsa, orucu batil etməz.[3]

Sual: Bir şəxs ramazan ayında sübh azanına 15 dəqiqə qalmış cənabətli halda yuxudan oyanır. 15 dəqiqə ərzində həm obaşdanlıq yemək, həm də yuyunmaq olmur. Vəzifə nədir?

Cavab: Obaşdanlıq yemədən oruc tuta bilərsə, əvvəlcə qüsl etsin. Amma yemədən oruc tuta bilmirsə, zərərdən qorxursa, yeməyini yesin, sübh azanından qabaq təyəmmüm etsin.[4]

Sual: Qəməri təqvimlə həddi-büluğ olmuş şəxs xəbərdarlıq edilməsinə baxmayaraq, miladi (şəmsi) təqvimlə həddi-büluğ olacağını düşünür. Bu səbəbdən də həmin ilin orucunu tutmur. Bu şəxsin vəzifəsi nədir?

Cavab: Əgər dini vəzifəsini araşdırmaqda səhlənkarlıq, etinasızlıq etmişsə, qəzadan əlavə kəffarə də vacibdir.[5]

Sual: Bir xanım dörd il oruc tutmayıb. Eləcə də özünə cehiz

---

[1] h. m. s. 307
[2] h. m. s. 544
[3] h. m. s. 545.
[4] h. m.s. 546
[5] h. m. s. 597.

almalıdır. Oruca görə kəffarə vermək vacibdir, yoxsa cehiz almaq? Əgər hər gün üçün altmış fəqiri doyursa, cəmi nə qədər edir?

Cavab: Bu xanım tutmadığı orucların qəzasını tutmalı, hər gün üçün kəffarə olaraq 45 kq buğda və ya onun qiymətini nəzərdə tutub fəqirlərə çörək üçün ödəməlidir. Kəffarənin təxirə salınmasının səbəbi etinasızlıq deyilsə, eybi yoxdur.[1]

Sual: Bir miqdar pul borc vermişəm. Xüms ilindən (günündən) qabaq almalı olsam da, pul yubanıb və xüms ilindən sonra əlimə gəlib. Bu pula xüms düşürmü?

Cavab: Əgər ilin qazancından olmuşsa, xüms düşür.[2]

Sual: Həddi-büluğ olmamış uşağın qazandığı pula xüms düşürmü?

Cavab: Bəli, vacibdir ki, uşağın böyüyü bu pulun xümsünü versin.[3]

Sual: Minik maşını, motosiklet və velosipedə xüms düşürmü?

Cavab: Sayılanların hər biri qazanc üçün olmasa, insana gərək olsa, onun şəninə uyğun gəlsə, ilin qazancından alınsa da xümsü yoxdur.[4]

Sual: Ata evində yaşayan qız işləyir və aylıq qazancından cehiz və digər yaşayış ləvazimatı almaq üçün bir miqdar pul toplayır. Bu pula xüms düşürmü?

Cavab: Əgər bu xanımın ehtiyaclı olduğu, şəninə uyğun cehizi almaq üçün başqa heç bir yolu yoxdursa və bir dəfəyə cehiz ala bilmirsə, yığdığı pula xüms düşməz.[5]

Sual: Vəliyye-fəqihə təqlid edənlər və etməyənlər üçün onun hökmünə itaət etmək vacibdirmi?

---

[1] h. m. s. 601
[2] h. m. s. 661.
[3] h. m. s. 661.
[4] h. m. s. 698.
[5] h. m. s. 745.

Cavab: Hamıya vacibdir.[1]

Sual: Əmr be məruf və nəhy əz münkərin şərən vacib olduğunu nəzərə alsaq, eyş-işrət məclislərinə münasibətdə insanın vəzifəsi nədir?

Cavab: Öz nəsihətinizin təsir edəcəyini ehtimal etsəniz, pis işin qarşısını almalısınız; bəli, mülayim şəkildə nəsihət etmək lazımdır.[2]

Sual: Əgər mindiyimiz maşında haram musiqi oxudulursa və nəhy əz münkərin təsiri ehtimal olunmursa, vəzifəmiz nədir?

Cavab: İmkan varsa, maşından düşmək lazımdır. Əgər mümkün deyilsə, diqqətinizi başqa işlərə yönəldin. (h.m.s.947)

Sual: Hazırda bəzi toy mərasimlərində haram musiqilər səsləndirilir. Bu məclislərdə iştirak etməmək qohumluq əlaqələrinin zəifləməsinə səbəb olur. Əgər nəhy əz münkər faydasızdırsa, bu məclisdə iştirak etmək olarmı?

Cavab: Əlaqələr zəifləsə də iştirak etmək olmaz.[3]

Sual: Batil lent yazıları və filmlərlə məşğul olan adamlarla təmas olarmı? Nəsihət məsxərə ilə qarşılansa necə?

Cavab: Belə adamlarla təmas işə təşviq və etinasızlığa səbəb olursa, caiz deyil.[4]

Sual: Bir qadın naməhrəmlə münasibətdə, öz geyimində qorunmursa və bu barədə ərinin sözlərinə etina etmirsə, ərin vəzifəsi nədir?

Cavab: Nəsihət və mümkün bir yolla qadın şəri hökmlərə dəvət olunmalı və günahın qarşısı alınmalıdır.[5]

Sual: Həddi-büluğa çatmış övladlar dini vəzifələrinə əməl etməyib, atalarını incidirlər. Övladların dini vəzifələrinə

---

[1] h. m. s. 910.
[2] h. m. s. 946.
[3] h. m.s. 948
[4] h. m.s. 949.
[5] h. m.s. 934.

biganəliyinə görə ata müqəssirdirmi?

Cavab: Ata, moizə və nəsihət, bəzən hədə, bəzən də başqa yollarla övladlarını vaciblərə əməl etməyə və haramlardan çəkinməyə sövq etməlidir. Əgər ata öz şəri vəzifəsinə əməl etsə, övladlara təsir etməsə də ata günahkar deyil.[1]

Sual: Atam xoşxasiyyət deyil, özünü bəyənəndir və ailəyə zülm edir. Mən həddi-büluğ olan gündən onunla mübarizədəyəm. Başqalarının yanında cavabını verməklə pis iş görürəm. Təklikdə isə heç bir sözümü qəbul etməyib deyir ki, atanla kobudluq etmə. Vəzifəm nədir?

Cavab: Valideynə ehtiram və onlarla ədəbli danışmaq lazımdır. Əgər əmr be məruf və nəhy əz münkərin təsirinə ümidiniz yoxdursa, daha vəzifəli deyilsiniz.[2]

Sual: Bəzi yaxın adamlarımız namaza, oruca və digər dini vəzifələrə tamam biganədirlər. Heç bir moizə və nəsihət təsir etmir. Bu halda sileyi-rəhm, onlarla get-gəl necə olsun?

Cavab: Əgər get-gəli kəsməklə onları günahdan uzaqlaşdıra bilsəniz, get-gəli kəsin. Əgər yaxınlıq etməklə onları günahdan uzaqlaşdırmağa ümid varsa, yaxınlıq edin, onları Allaha itaətə vadar etməyə çalışın.[3]

Sual: Əgər iş yerində dinə zidd hallar varsa və nəsihət fayda vermirsə (ya mümkün deyilsə) vəzifə nədir?

Cavab: İş yerindəki pis hallar barədə aidiyyəti məqamlara məlumat verilməlidir. Şəri xilaflara qarşı əmr be məruf və nəhy əz münkər edilməlidir. Şəriətə zidd göstərişlərə itaət etmək olmaz.[4]

Sual: Kart və şahmat oynamaq olarmı?

Cavab: Əgər qumar aləti sayılmasa, udub-uduzmadan (uduşsuz) oynamağın eybi yoxdur.[5]

---

[1] h. m. s.935.
[2] h. m. s. 937.
[3] h.m.s.940.
[4] h. m. s. 944.
[5] h. m. s. 951.

Sual: Futbol, valeybol kimi idman oyunlarını uduş şərti ilə oynamaq olarmı?
Cavab: Şərt kəsmək, udub-uduzmaq haramdır. Şərt kəsilmədən, qaliblərə hədiyyə verilərsə, oynamaq olar.[1]

Sual: Saqqalı, üzü ülgüclə qırxmaq olarmı?
Cavab: Vacib ehtiyata görə, saqqalı qırxmaq haramdır. Amma yanaqdakı tükləri qırxmaq olar.

Sual: Saqqalın yaxşı inkişafı üçün onu ülgüclə qırxmaq olarmı? Üzü qırxılmadığı üçün qaşınan adamların vəzifəsi nədir?
Cavab: Vacib ehtiyata görə, hər iki halda üzü qırxmaq olmaz.[2]

Sual: Tiryəkdən istifadə, onun alqı-satqısı, əkini caizdirmi?
Cavab: Tiryəkə adət etmək caiz deyil. Zərər olmasa, tiryəkə adətkar şəxs bu adəti tərk etməlidir. Tiryəkin alqı-satqısı, əkini dövlətin ixtiyarındadır və qanunlara qarşı çıxmaq olmaz.[3]

Sual: Narkotik maddələr və tütünün istehsal və istifadəsi caizdirmi?
Cavab: Narkotik maddələrin istifadəsi və alqı-satqısı haramdır. Tütündən istifadə vərdişi üçün şərait yaradırsa, haramdır.[4]

Sual: Bakirə qızın ərə getməsi üçün atanın razılığına (icazəsinə) ehtiyac varmı? Daimi və müvəqqəti evlənmədə bu məsələyə münasibət necədir?
Cavab: Vacib ehtiyata görə, bakirə qızın ərə getməsi üçün atanın icazəsi şərtdir. Bu məsələdə daimi və müvəqqəti evlənmə arasında fərq yoxdur.[5]

Sual: Həddi-büluğ olmamış qızın kəbinini atası bir şəxsə oxutdurur. Qız büluğ həddinə çatdıqdan sonra həmin şəxslə ailə qurmaq istəmir. Bu şəxs şiələri kafir saydığından can qorxusu

---

[1] h. m. s. 953
[2] h. m. s. 958.
[3] h. m. s. 963
[4] h. m. s.964.
[5] h. m. s. 1436

yaranır. Qızın vəzifəsi nədir?
Cavab: Bu izdivacın məsləhət olmadığını, bundan əlavə, fitnə yarada biləcəyini nəzərə alsaq, bu nikah batildir və qız izdivac etməyə bilər.[1]

Sual: Ata öz büluğ və yetkinlik yaşına çatmış qızını zorla ərə verə bilərmi?
Cavab: Bu izdivac batildir. Nə ata, nə də başqaları qızı zorla ərə verə bilməzlər.[2]

Sual: Müəyyən səbəblə bağlı məhrəm olmuş şəxs (məsələn, qaynana) bu səbəb aradan qalxdıqdan sonra da məhrəm qalırmı?
Cavab: Məhrəmlik əbədidir.[3]

Sual: Bir kişinin iki arvadı varsa, bu arvadlardan birinin kürəkəni o biri arvada məhrəm olurmu? Kürəkənin övladları necə?
Cavab: Kürəkənlər yalnız öz qaynanalarına məhrəmdirlər. Amma övladlar istər dolayı, istər bilavasitə hər iki arvada məhrəm olurlar.[4]

Sual: Bir oğlan və bir qız, çox ehtimal ki, bir müddət əvvəl bir-birlərinin anasının südünü içib, süd bacı-qardaşı olmuşlar. Həmin oğlan süd bacısının bacısı ilə evlənə bilərmi?
Cavab: Süd vasitəsi ilə məhrəmliyə yəqinlik olmalıdır. Yəqinlik yoxdursa, izdivac olar. Yəqinlik olduğu halda, oğlan öz süd anasının övladları ilə evlənə bilməz.[5]

Sual: Bir şəxs toydan qabaq, evləndiyi xanımın əvvəllər ərdə olub boşandığını bilsə, nikahı ləğv edə bilərmi?
Cavab: Əvvəlki izdivac nikahın ləğvinə səbəb olmaz.[6]

---

[1] h. m. s. 1443
[2] h. m. s. 1445.
[3] h. m. s. 1441.
[4] h. m. s. 1458.
[5] h. m. s. 1456
[6] h. m.s. 1539

Sual: Ata öz qızına verdiyi cehizi geri ala bilərmi?

Cavab: Ata cehizi öz qızına mülk etsə və ya bağışlasa, geri ala bilməz.[1]

Sual: Ərinin icazəsi ilə işləyən qadın öz qazancını ərindən icazəsiz xərcləyə, sədəqə və ya hədiyyə verə bilərmi?

Cavab: Qadın öz malını əri qadağan etsə də, sərf edə bilər. Amma ərdən icazəsiz nəzir batildir və qadın ərdən icazə almalıdır.[2]

Sual:Bir evdə bir neçə qardaş öz ailəsi ilə birlikdə yaşıyır. Belə hallar olur ki, bir qardaq o biri qardaşın arvadına baxır, onunla zarafat edir. Bu münasibətlərin hökmü nədir?

Cavab: Qardaşın arvadı da olsa, naməhrəm qadına baxmaq caiz deyil, Ləzzət məqsədi ilə naməhrəm qadına baxmaq, onunla zarafat etmək olmaz.[3]

Sual: Məsum imamlara, dini hökmlərə, Quran və Nəhcül-bəlağəyə həsr olunmuş elmi müsabiqələr keçirmək olarmı?

Cavab: İslam maarifini və şiəliyi yaymaq məqsədi ilə müsabiqə keçirməyin eybi yoxdur, hətta bu iş yaxşı işdir. Amma hədiyyə vermək məqsədi ilə iştirakçılardan pul almaq olmaz.[4]

Sual: Məscid və elmi mərkəzin büdcəsini yaratmaq üçün elmi müsabiqə keçirib, iştirakçıların hədiyyəsinin bir hissəsini büdcəyə, o biri hissəsini iştirakçılara hədiyyə üçün sərf etmək olarmı?

Cavab: Olmaz.[5]

---

[1] h. m. s. 1643.
[2] h. m. s. 1644.
[3] h. m. s. 1721
[4] h. m. s. 1341.
[5] h. m. s. 1344

# İMAM MEHDİNİN (Ə) QEYBƏTİ DÖVRÜNDƏ VƏZİFƏLƏRİMİZ

## *QEYBƏT DÖVRÜ*

İslam Peyğəmbəri (s) buyurmuşdur: “İbadətlərin ən üstünü fərəc intizarında olmaqdır.” (“Fərəc-imamın (ə) zühuru). Sözsüz ki, qonaq gözləyən adam əlini əlinin üstünə qoyub, bekar oturmur. Həyəti süpürür, su çiləyir, otaqları təmizləyir, ətirləyir, qonaq üçün rahatlıq yaratmağa çalışır. Biz də öz rəhbərimizə itaət edib, İslam təlimini dünyaya çatdırmalıyıq ki, onlar da imam Mehdi (ə) sevgisini dadıb, ədalət soraqlı zühurun intizarını çəksinlər. Biz dini biliklərə və əxlaqa sahib olmaq üçün səfərbər olmalı, İmamın əsgərlərindən olmaq üçün döyüşə hazır dayanmalıyıq. İmam Sadiq (ə) buyurur: “Qaimimiz ( Mehdi ) gələrkən Allah-təala ona üç qoşunla yardımçı olar: mələklər qoşunu, mö minlər qoşunu, düşmənlərin qəlbini sarıyacaq qorxu.” Əgər əməldə İmamın əsgəri olarıqsa, ola bilsin ki, elə bu dövrdə onun nurani çöhrəsini ziyarət edə bilək.

Bəli, köməkçi intizarında olan kəs üçün qəm, qürbət və tənhalıq dövrü çox ağırdır. Amma əmin olmalıyıq ki, İmam Zaman (ə) bir an olsun belə, öz şiələrini yaddan çıxarmır. Həzrət (ə) buyurur: “Həqiqətən, biz heç vaxt sizə münasibətdə süst olmamışıq və daim sizi xatırlayırıq. Əgər belə olsaydı ( sizi unutsaydıq ), çətinliklər və sıxıntılar sizə üz tutar, düşmən də sizə qalib gələrdi.”

Həzrətin (ə) nəvaziş əli daim başımız üstə olsa da, təəssüf ki, çoxlarımız onu unudur, ya da öz əməllərimizlə mübarək qəlbini incidirik. Ona görə də hər birimiz həmişə özümüzdən soruşmalıyıq: “Əziz imamımızı qeybəti dövründə bizim vəzifəmiz nədir?

İndi isə qeybət dövründə şiələrin vəzifələri ilə tanış olaq:

## ƏSRİN İMAMI HƏZRƏT MEHDİNİ (Ə) TANIMA

Həzrəti (ə) tanımaq o qədər zəruridir ki, rəvayətdə buyurulur: “İmamı tanımadan dünyasını dəyişən şəxs cahiliyyət ölümü ilə ölmüşdür.” Duada oxuyuruq: “Allahım, öz höccətini (h. Mehdini) mənə tanıtdır. Yoxsa həqiqi dindən azmış olaram.”[1] Bəli, şiə düşüncəsində imamla tanışlığın çox böyük əhəmiyyəti vardır. İmam Sadiq (ə) çətinlik vaxtı üz tutduğumuz imamın sifətlərini tanımağın ən üstün və ən vacib dini vəzifə saymışdır.

## YAXŞI RƏFTAR

Əqidəmizə görə, imamın razılığı Allahın razılığında, Allahın razılığı dini göstərişlərə əməl etməkdədir. Bir qrup yanlış düşüncə sahibi belə hesab edir ki, İmam Zamanın (ə) zühuru üçün cəmiyyət günah girdabına yuvarlanmalıdır. Bu baxışın əksinə olaraq, Həzrət Mehdinin (ə) intizarında olanların vəzifəsi İslam göstərişlərinə əməl etməkdir. Əsrin imamı (ə) bu barədə buyurur: “Sizin hər biriniz bizimlə dostluq üçün vasitə olan şeylərə əl atmalı, bizi qəzəbləndirəcək şeylərdən uzaq olmalısınız.”[2]

## FƏRƏC (ZÜHUR) İNTİZARI

Şiə düşüncəsinə görə, fərəc intizarı çox yüksək məqama malikdir. Həzrət Əlidən (ə) ən üstün əməl haqqında soruşduqda buyurur: “Fərəc intizarı.” İmam Sadiq (ə) buyurur: “İmam Zamanın (ə) intizarı halında ölən kəs onun xeyməsində ölmüş kimidir.”[3] Bəli, hər bir şiə daim o həzrətin (ə) qədəmləri intizarında olmalı, daim onun zühuru üçün dua etməlidir.

## KÖMƏK İSTƏYİ

Qurana əsaslanan bir etiqada görə, peyğəmbər və imamlar daim bizim əməllərimizi müşahidə edirlər. Bu əsasla onlardan şəfaət istəmək mümkündür. İmam Əli (ə) buyurur: “Əgər bir mömin öz istəyinin həyata keçməsi üçün dua edərsə, biz amin deyər, o sakitləşəndə biz onun üçün duaya başlayarıq.” Bəli, məsumlar

---

[1] Üsule-kafi”, c. 1, s. 337.
[2] Təhzibul-əhkam”, c. 1 s. 38
[3] “Müntəxəbül-əsər”, s. 475.

daim öz ardıcıllarına yardımçıdırlar.

### *İMAM ZAMANIN (Ə) MÜQƏDDƏS VÜCUDU ÜÇÜN SƏDƏQƏ VƏ DUA*

Həzrət Mehdi (ə) bizə verilən bütün nemətlərdə yardımçı olduğundan, ata-anamıza ehsan etdiyimiz kimi, imamın salamatlığı üçün də sədəqə verməli, zühurun tezləşməsi üçün dua etməliyik. Unutmayaq ki, həzrətin (ə) hifzi və salamatlığı Allahın iradəsindən asılıdır.

## “GƏNCLİYİN YEDDİ SƏMASI” MÜSABƏQƏSİNİN SUALLARI

1. Şiəliyin mərkəzi özəyi nə vaxt formalaşıb?
a) Həzrət Peyğəmbər (s) dövründə;
b) Həzrət Əli (ə) zamanında;
v) Üç xəlifə vaxtı;
q) İmam Sadiq (ə) dövründə.

1. Allahın ədaləti harada hakimdir?
a) varlıq alimi;
b) şəriət sahəsi;
v) hər ikisi;
q) heç biri.

3. Allah-taala yaranış məqsədini insana hansı yolla bildirib?
a) peyğəmbərlər göndərməklə;
b) imamlar gördərməklə;
v) ilahi övliyalar vasitəsi ilə;
q) hər üç vasitə ilə.

4. Quranın tərtibi nə vaxt başa çatdı?
a) Birinci xəlifə vaxtı;
b)Həzrət Əli (ə) zamanında;
v) Həzrət Peyğəmbər (s) dövründə;
q) ikinci xəlifə vaxtı.

5. Həzrət Mehdiyə (ə) inamı sünnilərdən neçə məşhur şəxs nəql edib?
a) əlli nəfər;
b) otuz nəfər;
v) yüz nəfər;
q) yetmiş nəfər.
6. İlahi ədalət yer üzünə nə vaxt hakim olacaq?
a) fəqihlər hakim olanda;
b) məsum imam (ə) gəldikdə;
v) müxtəlif qövm və din başçıları gəldikdə;
q) heç biri.

7. Talehi dəyişmək inamı nə mənadadır?
a) bəda mənasında;
b) cəbr və ixtiyar mənasında;
v) kamil azadlıq mənasında;
q) bütün hallarda.

8. Şiəliyə görə kim şəfaət edə bilər?
a) peyğəmbərlər;
b) məsum imamlar;
v) a və b variantı;
q) bütün insanlar.

9. Məada münasibətdə hansı variant düzdür?
a) qiyamətdə məad həm cismani, həm də ruhanidir;
b) qiyamət hesabı kamil ədalət əsasındadır;
v) qiyamət günü əməl ölçüsü Peyğəmbər (s) və məsum imamlardır;
q) heç bir variant.

10. Oğlanlarda həddi-büluğ nişanəsi nədir?
a) cod tüklərin çıxması;
b) məni (sperma) xaric olması;
v) qəməri təqvimlə 15 yaşın tamam olması;
q) b və v variantları.

11. Hansı variant dəstəmaza aiddir?
a) Allah qarşısında ədəb;
b) yuxunun qaçması və şadlıq yaranması səbəbi;
v) möminin qəlbini və ruhunu Allah hüzuruna hazırlayır;
q) b və v variantları.

12. Vacib namazlar hansılardır?
a) ayat namazı;
b) meyit namazı;
v) nəzir, and, icarə vasitəsi ilə vacib olan namaz;
q) bütün variantlar.

13. Günorta namazı qılmamış səhvən ikindi namazına məşğul olan şəxs namazın ortasında səhvini anlasa nə etsin?

a) niyyəti günorta namazına döndərsin;

b) namazı düzgündür;

v) yenidən qılsın;

q) heç bir variant.

14. Namaz qılan şəxs paltarının murdar olduğunu unudub, namazın ortasında xatırlasa nə etsin?

a) namazı düzgündür;

b) qəzasını qılmalıdır;

v) namazını yenidən qılmalıdır;

q) b və v variantları.

15. İxtiyarsız olaraq alın möhürdən qalxsa nə etməli?

a) başını saxlaya bilməyib təkrar səcdəyə getsə, üst-üstə bir səcdə sayılır;

b) mümkünsə alını yenidən səcdə yerinə qoymamalıdır;

v) hər bir halda namazı düzgündür:

q) a və b variantları.

16. Rükunu unudub həmd surədən sonra səcdə üçün əyilən nə etsin?

a) qalxıb rukuya getsin;

b) durmadan ruku halına gəlsin;

v) namazı batildir;

q) heç bir variant.

17. Yemək yediyi vaxt başa düşsə ki, sübh olub nə etsin?

a) tikəni ağzından çıxarsın;

b) orucu batildir;

v) həmin tikəni uda bilər;

q) b və v variantları.

18. Həkim bir şəxsə oruc tutmağa icazə vermirsə, nə etməli?

a) onun sözü bütün hallarda dəlildir və qəbul edilməlidir;

b) həkim mütəxəssis olsa və dediklərindən yəqinlik hasil olsa, onun sözləri dəlildir;

v) onun dediklərinə etina edilməməlidir;
q) başqa həkimlərlə də məsləhətləşmək lazımdır.

19. Oruc tutan şəxs o qədər susasa ki, susuzluqdan öləcəyindən qorxarsa nə etsin?
a) ölümdən qurtaracaq həddə su içə bilər; amma orucu batildir;
b) ölümdən qurtaracaq həddə su içə bilər və orucu batil deyil;
v) orucu batil edəcək işlərdən çəkinsin;
q) a və v variantları.

20. Əmr be məruf nə nəhy əz münkərin şərti nədir?
a) ehtimal oluna ki, əmr və nəhy təsir edəcək;
b) günahkarın öz günahını təkrar edəcəyi bilinərsə;
v) Əmr və nəhydə fəsad olmasa;
q) bütün variantlar.

21. Kişi naməhrəm qadının bədəninə baxa bilərmi?
a) haramdır;
b) ləzzət məqsədi ilə baxmaq haramdır;
v) haram deyil;
q) heç cür icazə verilmir.

22. Namaz halında ana bədəni murdar uşağı qucağına alsa, namazı batil olarmı?
a) bəli;
b) xeyr;
v) uşağın əynində ayıb yeri örtəcək ölçüdə murdarlanmış libas olmasa, eybi yoxdur;
q) heç bir variant.

23. Neçə illər qıldığı namazın səhv olduğunu anlayan kəs həmin namazların qəzasını qılmalıdırmı?
a) namazları düzgündür;
b) namazları batildir;
v) öyrənə biləcəyi halda, tənbəllikdən səhv qılıbsa, qəzaları qılmalıdır;
q) bundan sonra düzgün qılmalıdır.

24. Yaxınların yasında iştirak üçün kitab əhli məscidə girə bilərmi?
a) qarşısı alınmalıdır;
b) eybi yoxdur;
v) məscidə hörmətsizliyə səbəb olmasa, qarşısı alınmaya bilər;
q) b və v variantları.

25. Dini bayramlarda, məsumların doğum günlərində dini şerlər oxunarkən əl çalmaq olarmı?
a) əl çalmaq caiz deyil;
b) istənilən məqsədlə caiz deyil;
v) məzhəbi sevgini salavatla bildirmək münasibdir;
q) b və v variantları.

26. İşləyib, ata evində qalan qızın öz maaşından cehiz üçün yığdığı pula xüms düşürmü?
a) xüms düşür;
b) xüms düşmür;
v) cehiz almaq üçün başqa yol yoxsa xüms düşmür;
q) heç bir variant.

27. Dini rəhbərin hökmü bütün ölkələrə aiddirmi?
a) icra olmalıdır;
b) icra olmamalıdır;
v) bir məntəqəyə aid olsa, həmin məntəqədə icra olmalıdır;
q) öz ölkəsində icra olmalıdır.

28. Batil lent yazıları və filmlərlə məşğul olan adamla təmasda olmaq caizdirmi?
a) caizdir;
b) caiz deyil;
v) ehtiyat olunmalıdır;
q) təmas harama təşviq edirsə, caiz deyil.

29. Kart və şahmat oynamaq olarmı?
a) eybi yoxdur;
b) eybi var;
v) qumar aləti olmaqdan çıxmışsa eybi yoxdur;

q) qumar aləti olmaqdan çıxsa və udub-uduzmaq olmasa, eybi yoxdur.

30. Saqqalı və üzü ülgüclə qırxmaq olarmı?
a) haramdır;
b) haram deyil;
v) vacib ehtiyata görə saqqalı qırxmaq haramdır, üzü (yanağı) qırxmağın eybi yoxdur;
q) üzü (yanağı) qırxmaq haramdır, saqqalı qırxmağın eybi yoxdur.

31. Bir evdə yaşayan qardaşlar bir-birinin arvadına baxıb, zarafat edə bilərmi?
a) zarafat edə bilərlər;
b) naməhrəm qadına baxmaq caiz deyil;
v) heç cür zarafat olmaz;
q) ləzzət məqsədi ilə baxmaq və zarafat etmək caiz deyil.

32. Hansı variant doğrudur?
a) tütün çəkmək olar, amma hazırlamaq və yaymağın eybi var;
b) tütün hazırlamaq və yaymaq olar, amma çəkməyin eybi var;
v) tütün çəkmək, hazırlamaq və yaymaq caiz deyil;
q) narkotik maddələrin istifadəsi və alqı-satqısı haramdır. Adətə səbəb olsa, tütün çəkmək də haramdır.

33. Bakirə qızın ərə getməsi üçün atanın icazəsi şərtdirmi?
a) şərtdir;
b) şərt deyil;
v) vacib ehtiyata görə şərtdir;
q) heç bir variant.

34. Hansı variant ixlas nişanəsidir?
a) işdən yorulub soyumur;
b) etdiyi işdən peşman deyil;
v) gördüyü işin bilinməsini istəmir;
q) bütün variantlar.

35. Hansı variant vilayətçilik nişanəsidir?

a) Allaha itaət;
b) əvvəl vaxt qılınan namaz;
v) Əhli-beyt düşmənlərindən ehtiyacsızlıq;
q) bütün variantlar.

36. İmam Mehdinin (ə) qeybəti dövründə necə olmalı?
a) cəmiyyəti günaha sövq etmək;
b) biganə olmaq;
v) İslam qanunlarına əməl ilk vəzifə olmalıdır;
q) intizar çəkib, heç bir iş görməmək.

37. “Bağışlayan böyük, paxıl və dargöz isə zəlildir” Hədisi kimdəndir?
a) imam Hüseyn (ə);
b) imam Hadi(ə);
v) imam Sadiq (ə);
q) imam Cavad (ə);

38. “Axmağın qəlbi ağzında, aqilin ağzı qəlbindədir” hədisi kimdəndir?
a) imam Səccad (ə);
b) imam Kazim (ə);
v) imam Sadiq (ə);
q) imam Əskəri (ə);

39. “Öz eyiblərindən xəbərdar olan kəs başqalarında eyb axtarmır” hədisi kimdəndir?
a) həzrət Peyğəmbər (s);
b) həzrət Fatimə (s);
v) imam Əli (ə);
q) həzrət Mehdi (ə);

40. “Rüku halında zəkat verən” ayəsi kimin haqqında nazil olmuşdur?
a) imam Hüseyn (ə);
b) həzrət Fatimə (s);
v) imam Əli (ə);
q) heç biri.

41. İlahi kəlam işığında insana hansı nemət verilir?
a) dünya və axirət səadəti;
b) can sağlığı, bol ruzi, zülmətdən qurtuluş;
v) hidayət, can sağlığı, sağlam ruh və bədən;
q) Allahın razılığı, bol ruzi, hidayət.

42. Evdə Quran oxunanda nə olur?
a) haqq kəlmə ucalır;
b) dini şüarlar canlanır;
v) nemət artır;
q) bütün variantlar.

43. Hansı günah böyük (kəbirə) günah sayılır?
a) ağvalideynlik;
b) get-gəli kəsmək (qəte-rəhm);
v) əskik satmaq;
q) bütün variantlar.

44. Mərhum Ağa Mirza Cəvad Məliki Təbrizi öz şagirdlərinə nə vəsiyyət etdi?
a) Məscid kimi ictimai yerlərə çox get-gəl edin, orada çox olun;
b) Aşiq ariflərin həyatını mütaliə etməklə ruhunuzu gücləndirin, ona istiqamət verin;
v) Günah etmək haqda düşünməyin;
q) a və b variantları.

45. “Namaz qılmayana kömək edən şəxs yetmiş peyğəmbəri öldürmüş kəs kimidir” hədisi kimdəndir?
a) həzrət Peyğəmbər (s);
b) imam Əli (ə);
v) imam Sadiq (ə);
q ) imam Hadi (ə).

Mündəricat


AZƏRBAYCAN GƏNCLƏRİNƏ MÜRACİƏT ....................................3
MÜQƏDDİMƏ..............................................................................5
DÜŞÜNCƏLƏR GÜLÜSTANI ..........................................................7
ŞİƏ DÜŞÜNCƏSİNİN ƏN AYDIN ƏSASI ........................................7
ÖYRƏNİLƏSİ DİNİ HÖKMLƏR...................................................15
YETKİNLİK (BÜLUĞ) YAŞININ ƏLAMƏTLƏRİ ..........................15
NAMAZIN HÖKMLƏRİ ...............................................................16
VACİB NAMAZLAR ....................................................................16
NAMAZDA BƏDƏNİN ÖRTÜLMƏSİ.............................................18
NAMAZ QILANIN LİBASI ...........................................................18
ORUCUN HÖKMLƏRİ ................................................................20
XÜMS VƏ ZƏKATIN HÖKMLƏRİ ...............................................21
ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR ....................................23
(YAXŞILIĞA ƏMR, PİSLİYƏ QADAĞA).........................................23
ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏRİN DƏRƏCƏLƏRİ.........23
BAXMAĞIN HÖKMLƏRİ .............................................................24
TARİXƏ BİR BAXIŞ.....................................................................25
HƏZRƏT ƏLİ (Ə) VƏ NAMAZ HALINDA FƏQİRLƏRƏ KÖMƏK ...25
İMAM VƏ ŞİƏLƏRƏ QAYĞI .........................................................25
UNUDULMAZ NAMAZ ................................................................26
QURAN MAARİFİ HAQQINDA ......................................................26
QURANDAN FAYDALANMA .........................................................27
İLAHİ KİTABA EHTİRAM .............................................................28
QURAN TİLAVƏTİ.........................................................................29
GƏNCLƏRİN MƏCLİSİNDƏ QURAN QİRAƏTİ................................29
QURAN OXUNUŞUNUN GƏNCƏ TƏSİRİ ........................................29
QURAN OXUMAĞIN SAVAB VƏ FƏZİLƏTİ ....................................30
ƏBƏDİ İDEALLAR..........................................................................31
ƏXLAQ VƏ HƏYAT..........................................................................33
İXLASIN (SƏMİMİLİYİN) NİŞANƏLƏRİ ..........................................33
VİLAYƏTÇİ OLMAQ İSTƏYİRSİNİZMİ?............................................34
1.ALLAHA İTAƏT ...........................................................................34
2. ARDICILLIQ.................................................................................34
3. ƏVVƏL, BAŞLANĞIC VAXTDA QILINAN NAMAZ.......................35
4. ƏHLİ-BEYT DÜŞMƏNLƏRİNƏ NİFRƏT..........................................35
GÜNAH VƏ ONUN İNSAN HƏYATINA TƏSİRİ ................................35
GÜNAHIN TƏSİRLƏRİ ....................................................................37
İKİ BÖYÜK GÜNAH .........................................................................38
ƏHLİ-BEYT DOSTLARININ XÜSUSİYYƏTLƏRİ ..............................39
İSTİFTAAT .....................................................................................41
(ŞƏRİ SUALLAR) ..........................................................................41
İMAM MEHDİNİN (Ə) QEYBƏTİ DÖVRÜNDƏ VƏZİFƏLƏRİMİZ .51
QEYBƏT DÖVRÜ ...........................................................................51

ƏSRİN İMAMI HƏZRƏT MEHDİNİ (Ə) TANIMA ..............................52
YAXŞI RƏFTAR........................................................................................52
FƏRƏC (ZÜHUR) İNTİZARI.................................................................52
KÖMƏK İSTƏYİ .......................................................................................52
İMAM ZAMANIN (Ə) MÜQƏDDƏS VÜCUDU ÜÇÜN SƏDƏQƏ VƏ DUA ..........................................................................................................53
“GƏNCLİYİN YEDDİ SƏMASI” MÜSABƏQƏSİNİN SUALLARI ....54